Sulduz və Nəqəde

Sulduz və Nəqəde adlarının etimolojik kök araşdırması

Yazar : Fərhad Cavadi Yekan Sədi (Abdulla oğlu)

Urmiya / 15 iyun 2018

İran (güney) Azərbaycanın batı bölgəsinin önəmli şəhərlərindən birisi "Nəqəde" şəhəridir. Azərbaycanın ayrılmaz bir parçası olan və eynihalda çox əski bir tarixə malik olan Nəqəde şəhərinin yerləşdiyi mahala ,ümumiyyətdə Sulduz deyilir və adlanır.Azərbaycanın bu bölgəsində yə`ni Nəqəde şəhərində və bu şəhərin yerləşdiyi Sulduz adlı mahalında,başqa türklərlə birlikdə,türk dilli və türk soylu Qərəpapaq // Qarapapaq// Karapapak adlı el və xalq məskundur.Əlbət də lazimdir qeyd edək ki Qarapapaq türklərindən başqa,Güney Azərbaycanın qərb hissəsinin bir xeyli bölgələri və şəhərlərində olduğu kimi, Nəqəde və bu şəhərin yerləşdiyi Sulduz mahalında həmçinin qeyr-i türk Kürd xalqı da, şəhərdə və bir sıra kəndlərdə azlıq olaraq, məskun olub,əksəriyyəti təşkil edən Qarapapaq türkləri və başqa yerli türklərlə birlikdə yaşayırlar. Kankret olaraq Azərbaycanın bu ərazisindən söz gedəndə, yə`ni Nəqəde və Sulduz adlarının hər birisindən söz- söhbət gedəndə,istər- istəməz Qarapapaq türk eli və xalqı, göz önündə və zehinlərdə canlanır.Yəni

Nəqəde və Sulduz adları ilə Qarapapaq adları, bir-birindən ayrılmaz və bir- birinə bağlı görünür. Demək olar Nəqəde şəhəri və Sulduz mahalını Qarapapaqsız və əkəsinə olaraq Qarapapaqları Nəqədehsiz və Sulduzsuz, təsəvvür etmək olmaz. Azərbaycanın bu bölgəsi haqda,yəni Nəqəde şəhəri və onun yerləşdiyi Sulduz mahalı haqqında,indiyə qədər bir sıra yazarlar və tədqıqatçılar qələm çalıb müxtəlif məqalələr - kitablar ərsəyə və zühürə gətiriblər ki hərəsi öz yerində və öz məqamında bu bölgə –mahal və şəhər haqqında çox dəyərli sənədlər- məlumatlar və bilgilər iraə veriblər ki onlardan birisi də bu son çağlarda qələm vuran və geniş mükəmməl şəkildə hər tərəfli tədqiq aparıb - araşdıran və Nəqəde - Sulduz və Qarapapaq eli haqqında geniş şəkildə məlumat və bilgi toparlayıb iraə verən , Nəqəde – Sulduz bölgə sində boya- başa çatan Urmu sakinli İsfəndyar Hacilu adlı yazar və tədqıqatçıdır. **1** Nəqəde – Sulduz və Qarapapaq türk elinin haqqında indiyə qədər müxtəlif yazarlar və tədqıqatçılar tərəfindən çeşitli və cür bə cür məlumatlar və bilgilər iraə verilibdir. Nəqəde –

Sulduz və Qarapapaq eli haqqında tədəqiq və araşdırma aparan yazarlardan, Mehdi Rəzəvi 2 (il qarapapaq – tarix.adab.rəsmlər.folklor və monografiya) , Frud Xosrəvi Çiyanə 3 (tarix il Qərapapaq) , İsa Yeganə 4 (negahi be tarix və fərhəng il qarapapax) , Yusif Qəhrəmanpur 5 : (fərhəng amme il Qarapapaq) , Hac İsmail Nəbiyar 6 : (Azərbaycan və Sulduz) və ən sonuncu yazar İsfəndyar Hacilu`nu 1(tarix vilayət Sulduz 4-cilddə) ad aparmaq olar.Hər yazar bir baxımdan və bir açıdan onu araşdırıb bilgi veribdir və bizə də bu Nəqəde – Sulduz- Qarapapaq məsələsi mövzüsü ilə ilgili,yalnız bu bölgənin adlarının mənasının açıqlaması yə`ni etimologiyası və etimoloji kök araşdırması payımıza düşür və olsun ki bildiyimiz və əldə etdiyimiz araşdırmalar və tədqiqatlarımızın əsasında,bu məqaləni oxuyanlar və Nəqəde – Sulduz toponim adları ilə maraqlananların marağını və diqqətini cəlb və razi etmiş olaq və istədikləri açıklamanı və izahatı bu məqalədən əldə etmiş olsunlar. Nəqəde – Sulduz adlarının mənası və kökü haqqında indiyə qədər, adi kütlə və xalq tərəfindən

və hakəza yazarlar və tədqiqatçılar tərəfindən müxtəlif yorumlar və anlamlar iraə verilibdir ki hərəsi öz yerində düşündürücüdür və ciddi araşdırma və tədqiqi çalışmalar tələb edir. Çünki Azərbaycan toponimləri (=yer adları) zaman sürəsində,çeşitli və cür-bə-cür fonetiki və leksika dəyişilikəlrinə mə`ruz qalaraq , yer adları müxtəlif və çeşitli anlamlar və mənalar əldə edib və bu səbəbdənsə,bir çox yer adlarımız da,öz həqiqi anlam və mənasından uzaq və biganə düşübdür ki tam sərahətlə deyə bilərik Azərbaycanın və hətda İranın digər bir bölgələri və məntəqələrində olduğu kimi, Nəqəde və Sulduz yeradları da, bu vəziyyət və durumdan xaric və müstəsna deyil. Biz bu məqalədə çalışmamızın əsas amacı ,bir çox elmi və toponimika aləminə ayid elmi terminlərdən və istilahlardan vaz geçərək , onları bu məqalədə işlətmədən çox sadə sözlər və cümlələrlə, Nəqəde və Sulduz yeradlarının rişə və kökünü arayıb-axtarmaq və onların həqiqi mənalarını uzə çıxartmaqdır.Hər nədən öncə yeri gəlmişkən, yeradları haqqında çox önəmli bir mövzu və məsələyə işarə etməliyik və o budur ki, yeradları hər

bir yerin ,hər bir şəhərin, kəndin, mahalın, bölgənin, məntəqənin və hətda hər bir məhlənin tarixi və tarix boyu metirkasıdır və onu bilmədən(qərəzsiz) və ya bilərəkdən(qərəz ilə) əlləşdirmək,dəyişmək,barmaq eləmək ,qurdalamaq və ya başqa bir dilə çevirmək və ya kökündən ayırmaq və kökdən dəyişmək, tarix ələmi baxımından, tarix şünaslıq elmi baxımından, bəşər tarixi və mədəniyyət tarixi baxımından, çox böyük və bağışlanmaz bir suç və xətadir və bu suçu və xətani edənlər, keçmiş nəsillər və indiki nəsil və hətda gələcək nəsillər qarşısında çox ağır məsuliyyət daşıyırlar və bunların qarşısında cavabdehdilər. Bu məselə ilə hətda beynalxalq elmi- mədəni, ictimai və tarixi orqanlar və icmalarda, həmçinin qınaq dairəsindədir. Bu son 25 ilin ərzində görünür ki bir sıra insanlar və hətda milli – ictimai və ədəbi ziyalı cəməiyyti arasında, qərəzsiz olaraq , xeyirxahlıq , ırq milli sorumluluq hissi üzrə, torpaq – ərazi adlarının milli malikiyyəti və milli mənsubiyyətini qoruyub hifz etmək naminə və şovinizmin qərəz ilə yeradları dəyişmə siyasətinə qarşı durmaq naminə və onun səhv siyasətinə reaksiya və əks əməl göstərmə

niyyəti ilə, bə`zi yeradlarının qondarma və saxta və dəyişmiş olduğuna inanaraq , bir sıra yeradlarını, heç – heçinə (toponimika elminin normalarını nəzərdə almayaraq və bu elmın tədqiq və araşdırma uslub və usuluna göz yumaraq , bir düzgün elmi – tarixi və toponimik araşdırma və tədəqiq aparmadan) , sadə bir hədsiyyat və gümanlar üzrə və bir sıra əvam cəmaətin qeyr-i elmi və qeyr-i real nağılları və yorumları əsasında , tələsərək , Azərbaycanın bə`zi şəhər və yeradlarının dəyişməsinə təşəbbüs göstəriblər və göstərirlər. Bu sıra qurban olunmuş yeradlarından misal üçün "Qərəeyni" (səhv olaraq ərəbcə sanırlar) ,Tkab(Tıkab) və bu məqalənin söz konusu və mövzusu olan həmin "Nəqəde" şəhərini ad aparmaq olar ki güya Nəqəde adı qeyr-i həqiqi və sonradan qoyulma və fars siyasəti tərəfindən bu şəhərə verilmədir və bu şəhərin əsil və həqiqi adı Sulduz olmalıdır və Nəqəde adı götürləməlidir və bu kimi sözlər və dəlillər. Halbu ki həqiqi,köklü və rişəli bir tədqiq və araşdırma aparılsa , görünəcək ki Nəqəde adı,nə bu son zamanlara ayiddir nə pəhləvi və fars rəjimi və hakimiyyətinə və nə ərəbə ayiddir.

Həqiqi köklü və elmi araşdırma aparılsa idi , Nəqəde adının neçə minilliklər eradan öncəyə və qədim türk miflər panteonuna mərbut olmasına vaqif və şahid olunardı. Sulduz adı haqqında qeyd etmək lazimdir ki bu adı onun sadəcə zahiri anlamına kifayət edib və ümumiyyətlə xalq arası deyilən məna və anlamını irəli sürüblər. Xalq arası, bu adın anlamı və mənası, «sulu düz» və ya«sulu düzən»dir və bir çox elmi – mədəni və ədəbi icmalarda və bu bölgənin haqqında çalışan qələm ahli arasında və yerli qazetlərdə və Jurnallarda artıq qəbul olmaqdadır və demək olar bu məna və anlam, artıq öz yerini tapıb və təsbit olmaqdadır.Bir halda ki Azərbaycanın bir çox yerləri və bölgələri otlu- sulu yerlərdir və bir çox düzləri və yaylaları sulu və çay kənarındadır və Sulduz mahalından,sululuqda çox da olmasalar, az da deyillər.Ümumiyyətlə güney Azərbaycanın qərbi hissəsində,Sulduz mahalına tay otlu-sulu yerlər çoxdur və bə`zi bölgələri Sulduzdan da artıqraq otlu-suludur.Bu hesabla bu adı onlarda daşımalı olmalı idilər.Görünür ki bu bölgənin otlu-sulu olması, qərbi Azərbaycan ərazisində gözə çarpan və gözə gələn bir

üstünlük sayıla bilməz. Çünki Sulduza tay və Sulduz mühiti və iqlimi şəraitində olan yerlər, düzlər və düzənlər çoxdur.Bəs necə olur ki bu anlamda və mənada (Sulu düz) olan adı, yalnız Sulduz mahalı daşımaqdadır ?! Belə bir anlam və məna, qane edici deyil. Qane edici deyil ,çünki Azərbaycan ərazisində ortaq bir vəziyyəti daşıyan və ya ortaq bir duruma və özəlliyə malik olan yerlər, kəndlər və mahallar, eyni adı , daşımaqda olurlar. Misal üçün ,Azərbaycanın xeyli kəndlərində, küldən qalanmış və yaranmış kurqanlar və təpələrin olduğu üçün,hamısı «kültəpə» adını daşımaqdadır və eyni ada malikdilər. Hal necə oldu ki güney Azərbaycanda olan bir böylə otlu-sulu yerlərdən və düzənlərdən , yalnız «Sulduz» mahalı bu adı daşımaqda olur?!

Türk etnonimləri və etnotoponimlərinin hər birisinin özünə özəl tarixi nədənləri,qaynaqları və tarixi özəyi vardı. Hər bir tarixçi və tədqiqatçı və türkoloq ,əyər türk etnoslarının ad mənşəyini və ya mənşələrini,kök araştırması etmək istərsə,o mütləq qədim türk dilinin lüğət köklərini və eyni halda türk mifoloqiyasını ya mitoloqiyasını,tarix,arkeologiya,astronomiya və s...

bilməlidir.Toponimiya tədqiqatçılarının gözündən qaçırılan və haqqında heç bir söz açılmayan önəmli konu və qüsür,onların qədim tarixin dərinlikəlrinə getəməməsi və bu etnonim ya etnotoponimlərin etimologiyası və daşıdığı anlamlarının özəyi və mənşəyi haqqında, kök araştırma aparmaması ,açıklamaması və nədənlərini üzə çıxartmamaq və aşkar etməməsidir.
Sulduz-Nəqəde–qarapapaq haqqında aparılan tədqiqat və araşdırmalar əsnasında baxılan mənbələr və əsərlərdən,belə nəticə alınır ki bunların hər biri özünə müstəqil bir mövzudur ki hərəsi öz yerində ayrı–ayrılıqda araşdırmalı və tədqiq aparmalı konolardır.Yəni Nəqəde,Sulduz toponim adları, hərəsi özünə müstəqil və bir-birindən (tarix,mənşə, kök və yaranma tarixləri baxımından) ayrı-ayrı toponimlərdir və Qarapapaq etnonimi həmçinin bunlardan ayrı,müstəqil bir mövzudur ki bunları bir-birinə qatmaq və bir-birilə ilgiləndirmək yanlış və əbəs bir çaba və çalışma olacaq və sonucu da yanlış və qeyr-i real bir sonuc olacaq.Mənbələrə görə araşdırılan üç addan, Qarapapaq etnos adının

bölgədəki tarixi məskunlaşma yaşı bəllidir və həmçinin belə məlum edir ki Qarapapaq elinin indiki Nəqəde məntəqəsindəki "Sulduz" mahal adının yaranmasında,rolu olmayıb və bu tayfa və elin bu bölgəyə yerləşməsindən öncə,Sulduz adı bu mahalın üstündə,daşınırdı.Əlbət də mənbələrdə və son zamanlarda bu mövzu (Qarapapaq,Bozçəlu və Sulduz) haqqında yazılan əsərlərdə bir-birindən fərqli nəzərlər və fikirlər irəli sürülüb və bir çoxlu sorular və sualların yaranmasına da səbəb olur. Misal üçün Mehdi Rəzəvi`nin 2 «İL-i Qarapapaq» adlı əsərində səhifə 21–də qeyd olunur ki bozçəlu eli , 2200 ailədən ibart, Arazın qərbi sahilindən,cənub – şərqə tərəf hərəkət edirlər və yol üstü bölgələrin sakinləri yəni"Sulduzlular"(farsca yazıb solduziyan) bu köç mənzərəsini müşahidə edərkən,onların başlarında qara rəngdə papaqları olduğu üçün, onları"Qarapapaq" adlandırırlar.Mehdi Rəzəvi nin əsərindəki **2** bu mətləbdən belə nəticə çıxır ki Abbas Mirzanın dövründə,Maku,Naxçıvan,İrəvan ,Xoy və Ərzrum arası bölgə,"Sulduz" adlı tayfa və elin yurdu və məskəni idi və bu bölgədə yaşayan və sakin

olanlara da Sulduzlu deyirmişlər.Bu məlumatdan daha bir nəticə də çıxır və o budur ki indiki Sulduz mahalının adı,(Əbbas mirzanın Bozçəluları bu mahala köçdurməsindən öncəyə qədər) başqa bir ad imiş və bu indiki Sulduz bölgəsinin adı,"Sulduz" getmirmiş.Bunu nəzərdə saxlayaraq, Mehdi rəzəvi-nin **2** əsərində səhifə 22-də bu mətləbə də tuş gəlirik ki Əbbas mirzanın köç prosesində 2100 ailə, "Sulduz" ya "selli düz"(yazarın mənzuru Nəqəde məntəqəsi Sulduzu) adlı məntəqəyə hərəkət edirlər. Bu əsərdə digər bir gözə çarpan məselə,əsərin müxtəlif səhifələrində"Sulu düz" adını ,"Sulduz" adı yerinə rəsman e`lan olunmasıdır.

Bu əsərin səhifə 20-də daha bir düşündürücü və düşündürməyə sövq verən mətləbə işarə olunub ki güya xilqətdən bəri ta Əbbas mirza dövrünə qədər və Qarapapaqların Nəqəde məntəqəsinə yerləşdikləri zamana qədər,bu indiki Sulduz adlanan ərazidə ,("Mahur" düzü istisna olaraq) heç bir xalq, tayfa və el yaşamırdı,çünki bu ərazi su altında idi və tədricən metir-metir su çəkildikcə, üzə çıxıbdır.

Bu mövzula yanaşı və əlaqədə,Yusif Qəhrəmanpur 5 öz "fərhəng ammə il Qarapapaq" adlı əsərinin səhifə 20-də Sulduz bölgəsində yerləşmiş Həsənlu təpəsi civarında,miladdan qabaq(eradan əvvəl) olan bir yaşayış mərkəzindən və şəhərin qalıqlarından və onun qalın duvarları olduğundan xəbər verir. Qəhrəmanpur 5 öz əsərinin səhifə 29-da "Sulduz" adlı bölümündə,xsüsən Rəşidəddin fəzlullahın Camiəltəvarixinə istinadən,bu mahalı ilxani Moğullarının və onların türk noyanları və qoşun sərkərdələrinin,xsüsən türk soylu "Sulduz"(Suldus) adlı tayfa və qəbilənin marağında olduğunu və bu əraziyə maraq göstərmələrinə və meyilli olduqlarına işarə edir. Bunun ardıca Qəhrəmanpur 5 Minorski`yə istinad edir və Minorski`nin Sulduz haqqında verdiyi bilgini gətirir. Minorski, Sulduz haqqında yazır : "Qazan xan Sulduz bölgəsini "Əmirçoban Sulduz"a verir.Əmir Teymur Qurkani hökümətinin xidmətində olan Sulduz tayfasının əmirlərindən birisi "Şıx Məhmudxan Sulduz"dur.Minorskinin bu yazısından belə çıxır ki indiki Sulduz mahalı,artıq qəməri il771-dən beləyə,yə`ni Səfəvi sülaləsinin başlanışından

bəri, "Sulduz" adı ilə tanınmağa və adlanmağa başlayıbdır".Sulduz adının anlamı və yaranması haqqında, yazar "İsa Yeganə" də 4 ,"negahi be tarix və fərhəng il qarapapax" adlı əsərində səhifə 31-də , Sulduz haqqında deyilənləri və nəql-i qövlları gətirib Yusif Qəhrəmanpurun əsərində olduğu kimi "Sulduz" adını və sözünü,türkcə–Moğolca söz olaraq , türk- Moğol noyan və sərkərdəsi "Sulduz noyan" ilə ilgili olduğu nəzəriyyə və nəql-i qovla işarə edir (birinci nəzəriyyə) ki güya Moğol qoşunundan bir dəstəsi indiki Sulduz məntəqəsinə gəlib və bu məntəqə onların xoşuna gedir və "Sulduz noyan" adlı öz sərkərdələrindən istədilər ki bu bölgəyə ad qoysun, və o da öz adını bu bölgəyə verdi. Sonra "tarix İran əz dore-ye bastan ta sədə-ye hicdəhom" əsərində "indiki Sulduz mahalı ərazisini Qazan xan tərəfindən"Sulduz"adlı tayfa və qəbiləyə verilməsinə və sonda bu tayfa və qəbilənin adı ilə adlanması və səslənməsi nəql-i qovla işarə edir.Eyni halda"əz tarix əsr-i Hafez" əsərindən fakt gətirir ki belə yazılıbdır: "Dehxuda"nın lüğət naməsində İlxanilər zamanı (Olcaytu hökmranlığı dövründə) Əmiraloməra

(=əmirlər əmiri) titulunun sahibi,Əmirçoban Sulduz adı ilə bağlıdır.Və ən sonda bu bölgə və mahalın iqlimi şəraitinə görə və yağınlıqlar əsərində bu ərazidə su göləklərinin yaranmasına görə,bu son zamanlar rayic və dəbdə olan sulu düz mənalandırmasına işarə edir. Yazar İsa Yeganə 4 bu nəzəriyyələr və nəql-i qovllardan sonra,bu dörd fərz və nəzər içində, onun öz qəbul etdiyi fərz və nəzəri ,birinci nəzər və fərzdir.Yə`ni Sulduz adını, Moğollar ilə və "Sulduz noyan"ın adı ilə ilgili olduğunu qəbul edir. Frud Xosrəvi **3** də "tarix il qərapapaq" adlı əsərinin səhifə 27-28-də, Sulduz adı haqqında ,Rus yazarları tərfindən qəlmə alınmış "tarix iran əz dore-ye bastan ta payan qərn-i hicdəhom miladi" adlı əsərə istinad edir və "Sulduz" adlı moğol qəbiləsi və bu qəbilənin "Əmirçoban" adlı sərkərdəsi və Çupanyan (çobanilər) adlı sülalə ilə bağlı olduğuna dair, işarə edir. Bu məlumatın əsasında Xosrəvi **3** sonra belə nəticə çıxarır ki Sulduz mahalı çobanilər sülaləsinin istilasından qabaq ,başqa bir ada malik imiş və onlar bu bölgəyə istila tapandan sonra,öz el və tayfa adlarını,yə`ni

"Sulduz"adını bu bölgəyə vermişlər və Qarapapaqlar bölgəyə gəlmədən öncə,bu ad işlənilirdi,və buna sbüt olaraq "aləm aray əbbasi" ,"zendəgani Şah Əbbas" adlı mənbələrə işarə edib onlara istinad edir.Yazar sonra xalq arası deyilən "sulu düz" yorumuna işarə edir və bu nəzəri əvamyana və qeyr-i real hesab edir və Sulduz haqqında Dehxudanın lüğət naməsinə də istinad edir.Nəqəde – Sulduz haqqında qələm vuran digər bir yazar,İsfəndyar Hacilu**1** da, öz növbəsində Sulduz adının yaranma tarixi,yaranma səbəblərinə təşəbbüs göstərib və yuxarıda adları qeyd olunan yazarlar təkin,bu adın "Suldus" / "Sulduz" adlı türk-moğol tayfası və İlxanilər və onların xələfləri sayılan çobanilər sülaləsi və xanədanı ilə ilgili olmasına dəlalət və şəhadət verir və bu haqda lazim olan tarixi bilgiləri gətirib və o zamanın tarixi olaylarını və Sulduz adlı tayfa və qəbilədən söz açıb və onların əmirlərinin Moğol imperyası dövlət və hakimiyyətində tutduqları rütbə və məqam durumu və şəraitlərini, tarixi mənbələrə istinad edərək,qeyd edib açıqlayıblar. Bu hesabla İsfəndyar Hacilu**1** da Sulduz mahalı adını,"Sulduz" adlı türk- moğol soylu

tayfa və qəbilə adı və həmçinin bu tayfa və elin "Sulduz" adlı sərkərdəsinin adından alınmağını və ilgili olmağını vurqulayıblar.Biz bu yazarların hamısının "Sulduz" mahalı adı haqqında apardıqları tədqıqatlara və araşdırmalara diqqət edərəkən, Mehdi Rəzəvi-dən 2 başqa ,onların Sulduz adı haqqında bu son mətləbdə və nəzəriyyədə (Sulduz adlı türk-moğol tayfası və əmir noyan adı ilə əlaqə dar) yekdil və müttəfiq-ol qovl olduqlarına və işarə etməklərinə şahid oluruq.Nəzəriyyələrin və fərzlərin hər biri öz yerində düşündürücü və araşdırılmalı və mübahisəlidir və qətiyyətlə rədd ya qəbul etmək çətin və məsuliyyət gətirici bir işdir. Toponimiya elmi bir o qədər ağır və məsuliyyətli işdir ki, hər bir yer adını açıklamada və onun yorumu,müxtəlif elmləri və bilgiləri (az – çox) bilmək tələb edir və hər tərəfli hər üzünü nəzərə almaq gərəkir.Çünki kiçik bir səhv və xata və qeyr-i real yorum və açıklama, bir xalq ya el üçün indiki halda və gələcəkdə, çox bahaya baxa bilər və ağır fəlakətlərə düçar olmasına səbəb ola bilər. "Sulduz" adının indiki Sulduz mahalına, Sulduz adlı tayfa tərəfindən

və ya əmir çoban Sulduz tərəfindən qoyulması və ya Qazan xan ilə ilgiləndirmək bir yana, və "Sulduz" adının təklikdə öz kökünü və etimologiyasını və yaranma köklərini araşdırması, analiz və təhlil etmək bir yana. Sulduz adı əzəl gündən indiki mahalın üstündə olmuş ola və ya ilxanilər dövründə bu mahala qoyolmuş olsa belə, adın öz kökündə və kök araşdırmasında və yaranmasında keçirtdiyi davamlı proseslərinə və ilk yaranma səbəblərinə və onun ilk dəfə hardan tapılmasına fərq etməyəcəkdir.İndi bu ad ilk öncə orta Asyada və ya Nəqəde məntəqəsində yaranması, bizim bu adın bir lüğət və termin kimi ilkin tapılma və yaranma nədənlərini və səbəblərini araşdırmağa və onun etimoloji araşdırmasına mane ola bilməz.Məsələ burasındadır ki Sulduz adı moğol türklərində olmuş ola və ya orta Asyada və ya Azərbaycanda olmuş ola, bu sözün və ya adın kökü və anlamı nədir ? Biz də bu məqalə də,öz nöbəmizdə çalışırıq ki bu adı, bir lüğət və termin kimi ilkin yaranma və peyda olması səbəblərini açıqlayaq və onu keçirtdiyi zamanın süzgəçindən keçirdək və nə olduğunu və nə ilkin anlamlarını daşıdığını, ilkin özə

yini və kökünü açıklayaq və bu açıklamada əldə etdiyimiz nəticələri sizinlə paylaşaq və öz nəzər və fikirlərimizi sizinlə ortaq olaq. Biz bu yazımızda bu adı bir söz olaraq nəzərdə tutub , onu analiz və təhlil etməklə yanaşı, güclü ehtimalları da, ortaya qoymaq istəmişik.Bizə görə Sulduz adı əzəl gündən bu mahal və bölgənin üstündə varimiş və bu son tarixi olayların əsasında qoyulması və Sulduz adlı tayfa və sərkərdə və qoşun başçısının adı ilə qoyulması,şüphə doğurur.Çünki Azərbaycan toponimiyası xarakterləri və normaları ilə uyumu və oxunuşu olmur. Azərbaycan və digər türk torpaqlarında olan toponimlərin(yer adların) yaşı ,eradan öncəyə çatır. Biz Sulduz adlı türk-moğol tayfasının olduğunu və "Sulduz" adlı noyan və qoşun sərkərdəsinin olmasını və Qazan xan dövründə üz vermiş olayların olmasını ,münkir deyilik və inkar etmirik, və bunları Sulduz mahalı adı ilə oxşarlıq və təsadüf üzrə bilib hesab edirik.Yə`ni "iş , işi göstərir" məsələsinə oxşur. Ola bilsin ki həmin Sulduz adlı türk- moğol tayfanın ilk yaşayış və məskun olduğu yer,həmin Nəqəde-Sulduz məntəqəsi imiş və sonralar tarixi,coğrafi migrasyalar

əsərində, orta Asyadan, Moğolistandan və ya mavəraulnəhrdən(ceyhun-seyhun çaylarından üstə yerləşmiş bölgədən) baş çıxardır və ilxanilər dövründə, yenidən qayıdır öz doğma yurduna. Hər nə öz əslinə qayıdar. Türk tayfaların, ellərin kütləvi sürgün olması proseslərində,onların yenidən öz doğma yurdlarına qayıdışını, biz bu son əsirlərdə Rusiyada üz vermiş tayfa və el sürgünlərində şahidi olmuşuq. Sürgün olmuş və ya muhacirət etmiş bir xalq ya tayfa ,ola bilsin ki bir də öz ilkin doğma yurduna qayıtsın və yenidən həmən yerdə məskun olsun.Bəşər tarixində , özəlliklə türk tarixində belə olaylar üz veribdir və çox görünüb ki sürgün olmuş ya köçdürülmüş xalq və tayfa, yenidən öz ilkin doğma ata-baba yurduna qayıtsın. Əgər Sulduz adlı bir tayfa və el toplum halında Moğolistanda həyat sürürmüşsə , nə yaxşı moğolistanda bunların adında ,yə`ni Sulduz adında bir şəhər və ya yer adı olmayıbdırmı?! türk tarixində ümumiyyətdə , tayfalar öz adlarını yaşadığı ərazilərin adından alıblar və ərazilər həmçinin öz adlarını, onda yaşayan xalqın sevdiyi və pərəstiş etdiyi tanrı və

tanrıçasının adından alıbdır. Türk kökənli yer adlarında, yurda, torpağa ad qoyulmanın qaydası belə olubdur. Deyilir ki Sulduz adı səfəvi dövrünə qədər heç bir yazıda və qaynaqda görünməyıb və sabiqəsi yoxdur. Bunun cavabında deməliyik ki məyər bir böylə türk yer adlarının hamısının adı – sanı tarixdə və mənbələrdə qeyd olunubdurmu?! Bizim fikrimizcə "Sulduz" türklərinin Azərbaycana gəlmə olduğunu düşünmək düzgün görünmür.Sulduz türkləri ən azı 2-3 min il eradan öncə,həmin bu Sulduz adlı ərazidə yaşamaqda olublar və orta Asya və Türkistana və Moğolistan ərazisinə də, həmin bu indiki Nəqəde Sulduzundan köçmüşlər və bu son minilliyin orta yüz illiklərində moğolların bu əraziyə hərbi yürüş və axını ilə, Sulduzların yenidən bu torpaqlara gəlməsi,onların yenidən əzəli torpaqlarına və ulu əcdadlarının torpağına dönüşləri sayıla bilər. Bunu Həsənlu təpəsinin qazıntılarından tapılmış saxsı qablar və məişət əşyaları və Həsənludan tapılan qızıl kupa bizə deyir. Qızıl kupanın tarixi qidmətini 2800 ildən artıq təxəmin vurublar. Ən əski Sulduzlar(indiki Sulduzların ulu əcdadı) zaman

keçdikcə həmin Nəqəde – Sulduzdan, ətraf və uzaq yerlərə və yurdlara köç ediblər. Bizə görə Sulduz türkləri,indiki Nəqəde – Sulduz torpaqlarına gəlmə deyillər və ulu əcdadlarının doğma yurdları olması baxımından,onlar yerli türk xalqıdır, baxmayaraq ki müvəqqəti olaraq bir müddət öz doğma yurdlarından köçüb səpələnib və uzaq düşmüşlər.Bizə görə köç və ya sürgün olunsalar da,amma bunlardan öz yerində qalanlar da olubdur və Moğolistandan yeni dən qayıdan soydaşlarını açıq qucaq ilə qəbulediblər. Sulduzlular Sulduzdan köç etmiş olsalar və ya sürgün olsalar belə,Sulduz adı öz yaşamağında qalıbdır.Xalq,el,tayfa köçüb amma yer adı yaşamaqda olub.

Bizə görə Sulduz yer adı da artıq Azərbaycanın bir xeyli yeradlarında göründüyü kimi,əski Azərbaycan türk mifologiyası və astronomiyası ilə bağlı bir addır və onun rişəsi və kökü , qədim Azərbaycan və türk tarixinin dərinlikəlrinə gedib çatır və bu adı da , Azərbaycan türk mifologiyasının süzgəçindən keçirtmək gərəkdir və bu sahədə lazim olan güclü dəlilləri və həqiqətə uyğun və yaxın olan ehtimalları

ortaya atmalıyıq ta «Sulduz» yer adının gerçək anlamı və mənası və tapılma nədənləri bəlli və aşkar olunsun. Biz burda ən güclü versyaları və ehtimalları nəzərdən keçirtməliyik.«Sulduz» bir mürəkkəb addır. bu adı iki halətdə bərpa etməliyik və hərhaləti də öz yerində üstündə işləyib açıklamalıyıq . Deməli iki varyant ortada var :

A) «Sulduz» adını iki hissəyə bölmək :

1- Su+Ulduz

2- Sol+Duz //Sul+Duz

B) «Sulduz» adını üç hissəyə bölmək :

(Su + ul + duz)

ilk öncə birinci varyantdan yə`ni (A -1)dən başlayırıq :

Bu adı «su+ulduz» kimi bərpa etəsk ,o zaman adın ilk hissəsini «su» təşkil edir. «Su» və onun digər fonetik variyantları SO/SA/SE/Sİ , qədim türk mifologiyasında «su» ,«nur», «işıq» anlamlarını daşımaqdadır. Adın ikinci hissəsi isə , türkcə olan

«ulduz» sözüdür. «Su» və onun digər bir variyantı sayılan "Şu" , bizə görə qədim türk mifologiyasında "nur","işıq","bərq","parıltı", "işın" və "işıq tanrısı" deməkdir . Bir sıra türk dillərində "s" /"ş" səs dəyişilməsi qanun- qaydaya görə , Şu"nu,"Şi" və "Su "yun variyantı hesab etməklə və həmçinin "Şi" ya "Su"yun , "nur","işıq","işıq parıltısı" kimi mifik anlamlarını göz önünə alaraq ,və eyni halda "ulduz"un "gün","günəş" kimi anlamlarını göz önünə alsaq, o zaman "Sulduz" mahal və bölgə adının anlamı yuxarıdakı anlamların sırası ilə ibarətdir bunlardan :"işıq və nur tanrının günü", "işıq və nur tanrının ulduzu","işıqlı və parlaq ulduz" ,"işıq və parıldayan ulduz","nurlu ulduz","nur və işıq ulduzu","nurlu və işıqlı günəş ulduzu" ,«günəş ulduzu» və bu kimi anlamlar.

Diqqət edərkən görünür ki bu anlamlar türk və Azərbaycan mifologiyasından törənmiş və süzülmüş mifik elementlərin terminləridir.«Su» və onun digər fonetik variyantları SO/SA/SE/Sİ , qədim türk mifologiyasında «su» ,«nur», «işıq» anlamlarını daşımaq ilə yanaşı , eyni halda etnos adı olaraq ,

Saka türklərinin bir önəmli və məşhur tayfasının adı dır. Qədim türklər,özəlliklə Sak və Saka türkləri , yay və kamana da ,"Sa" və "Say" deyirmişlər. Günəşin özünü "yay"(daha doğrusu dartılmış yay və kaman) və onun şualarını da,ox(daha doğrusu yaydan çıxmış və sıçramış ox) kimi nəzərə alıb və təcəssüm edirdilər. və bunun əsasında "saq","sak"// "şaq","şak" ad-sözünü iki hissəyə bölərək "sa"//"şa" (Say // Şay) hissəsini "yay" və "kaman" anlamında işəldiblər və "oq","ok"(="tır","tir") hissəsini "ox" anlamında işəldiblər. Bu izahatı nəzərə alaraq, özəlliklə də "oq" ya"ox"un "tir" və "tır" anlamlarını göz önünə alaraq, belə çıxır ki müxtəlif türk ərazilərində yaşayan"satır" // "şatır" adlı türk soylu və türkdilli tayfa da ,məhz həmin Sak ya "Saq" türklərinin bir qolu olmalıdır."Sa"(=yay və kaman) və "oq"(ox,tir,tır)sözləri, qədim türk mifik görüşlər və fəlsəfəsilə bağlı əsil türk sözləridilər.Bu "Satır"/ "Şatır" mürəkkəb sözü və etnos adı, qədim türkcə sözü "sa" (=yay,kaman) və" tır"(=ox,peykan) sözlərindən yaranmışdır."Sa" bir çox türk dillərində "yay" və "kaman" deməkdir."Sa"nın "Ya" və "Ça"

kimi variyantları vardır.Əyər "Su","Sa"nın variyantıdırsa,deməli "Sulduz" adının anlam və məna çalarlarından birisi də "Yay ulduz" ,"Yay ulduzu" ola bilər. "Ox" ya " tır"ın da qədim türklər arasında müxtəlif məna çalarları olub və onlardan birisi də "V.V.Radlov"un7 qeyd etdiyi kimi Qazaq ,Altay dilində və "lebed" ləhcəsində "ailə" , "soy" ,"nəsil" ,"mənşə" kimi mənaları vardır. Bu izahatın əsasında və ardında,bizim bu nəzəriyyənin əsasında aparılan araşdırmalarımızda belə bir nəticə ələ gəlir ki çox güclü ehtimala görə , Sulduz adını ,indiki Nəqəde məntəqəsinə verən , ancaq "Sak" ya "Saka" türkləri ola bilər. Yə`ni belə düşünülür ki tarixin ən əski çağlarında ,indiki Sulduz mahalına ilk addım basan el və ya xalq, "Sak"/ "Saka" türkləri olubdur və indiki Sulduz mahalında yerləşdikdən sonra,öz inanclarının əsasında, inandıqları "günəş tanrı"sının adını,yə`ni "Sulduz" tanrının adını,öz yaşadıqları və məskun olduqları yerə və mahala vermiş olsunlar. Bizim belə düşündüyümüzə dəlil , "Sulduz" adının (su+ulduz) , ilk hissəsi,yə`ni "su" hissəsidir, çünki "Su" və onun başqa variyantları olan "Si","Sa","Se",

"So",saka türklərinin bir önəmli el və tayfasını təşəkil etməsi həqiqəti, tarixi qaynaqlarda və Çin salnamələrində öz əksini tapıbdır.Bunu da qeyd etmək lazimdir ki Çinlilər,Sak ya Saka türkəlrinə, qədim tarixlərində və salnamələrində,"Se" deyirmişlər."Se" isə,"si"/"su"/"sa" nın fonetik variyantı sayılır. Qədim sak ya saka türkləri , "Sa" /"Se" /"Si" və "So"/"Sa" sözünü bir etnos və tayfa adı kimi öz tayfə və ya qəbilələri üçün seçməkdə, ola bilsin ki bu seçimin siyasi və dövlətəlrinə ayid səbəbləri olmuş olsun. Belə ki bu adı seçmək , o türk tayfasının mifoloji inamları ilə və bu inamlar və düşüncələr ilə səsləşən dövlət və həkimiyyət qanunları ilə bağlı olsun. Türk dilli xalqlar və tayfaların çoxunda,"yay"a(sa/say) və "ox"a(oq/tir/tır) inanırdılar və mifoloq Mirəli Seyidov-un **8** dediyinə əsasən, "yay"ı müstəqilliyin, rəmzi və simgəsi ,həmçinin "ox" ya "tır"ı isə vassallığın (=güclü dövlətdən asılı olan) bəlgəsi sayırdılar. "yay" və "ox"un bu mifolojik anlamları və görüşlərini nəzərə alan türkdilli xalqlar və etnoslar,gahdan "yay"ı (=sa // ça // şa) və hərdən də "ox"u (=oq/tır/tir) və gahdan

da ox və yayı birgə, özünə ad seçirmiş. Biz bu məlumatın əsasında türkdilli "Saq"//"Sak"ların adının da nə olduğunu rahət başa düşə bilirik,necə ki Mirəli Seyidov **8** da işarə edir ki türkdilli Saqlar özlərinə "yay" və "ox"u ad seçirlər və burada yayın "quvvət","güc" və "müstəqillik" anlamlarını nəzərə almışlar.Onlar dünyanın dörd bir yanında öz vassallarının olduğunu bildirmək üçün rəsmi papaqlarına dörd qızıl ox taxarmışlar. **8**
Biz burada bu açıklamanın əsasında belə bir nəticəyə çatırıq ki qədim türk dilli saq // sak// saka xalqı və bu xalqın "Si"//"Su" adlı böyük və önəmli qolu ilə Sulduz// Solduz xalqı və etnosu bir kökdən və mənşədən sayılırlar,çunki hər iki etnosun da, ad tərkibində qədim türk mifi "Sa" ya "So" və"Si" iştirak edibdir(saklarda"si"tayfası və sulduzda "su"// "sı" tayfası) və hər iki etnonim də eyni adı və mahiyyəti daşımaqdadır.Bu məsələ bizi bu iki etnosun kökdaş və həmmənşə olduğuna inandırır və bu əsasdadır ki "Sulduz"ları ya "Solduz"ları,"saq"// "sak"//"saka" türklərinin bir qolu və şaxəsi olduğuna inandırır.Deməli belə nəticə alınır ki çox güclü bir

ehtimala görə,Sulduz mahalının ilk sakinləri, saka türkləri olmuş olsun.Sak ya Saka türkləri Yakutistan dan tutmuş və orta Asyadan ta Azərbaycana qədər və hətda Sistana vilayətinə qədər yayılmışdılar. Ümumiyətlə Sak ya Saka türkləri("Su"türkəlri //"Si" türkəlri //"Se" türkləri) oda və atəşə tapınıb və sitayiş edərmişlər.Bu türklərin tapindiğı və pərəstiş etdikləri "od"(atəş) , əslində həmən "gün" ya "günəş"dir və "od"(atəş), gün ya günəşin yerdəki simgəsi, simvolu və nişanəsi sayılır.

İndi isə,birinci halətin ikinci varyantını (A 2) gözdən keçirdək : Sul / Sol + duz = Sulduz .

Bu halətdə Sulduz adının birinci hissəsini «Sul /Sol» təşəkil edir.

« Sol » və onun digər fonetik variyantları "Sul", "Sal", "Zal" haqqında deyə bilərik ki "Sal" //"Sol" sözləri də, əslində "sa.ul"dur və qədim türk mifik sözü "Sa"(=nur,işıq) və qədim türk sözü "ul" (=qırmızı) sözlərinin tərkibindən yaranmış mürəkkəb addır və anlamı,"qırmızı işıq","qırmızı nur","qızarmış işıqlı" deməkdir.İndiki türk dilində

işəlnən "al" sözü də əslində "ul" sözünün digər bir variyantıdır. "Su" və onun digər fonetik variyantları sayılan "Şu" və "Zu", qədim türk mifologiyasında "su"dan(=çay,dəniz,okyan) başqa,"nur","işıq" kimi mifik məna çalarları da olmuşdur.qeyd etmək lazimdir ki "Su"nun "işıq və nur" anlamında olmağına sbüt olaraq ,fars dilində"su-su" sözünə işarə edə bilərik.Bu məlumatın əsasında və digər tərəfdən "Se" həmçinin «Sa»nın fonetik variyantlarından birisi olmasını nəzərə alaraq, biz bu nəticəyə çatırıq ki uzaq şərqdə "cənubi Kareya"nın indiki paytaxtı yə`ni "Se.ul" şəhərinin adı, çox güclü ehtimala görə həmin qədim türk mif və tanrısı "Sa.ul" ya "Se.ul"dur. "Sal",qədim türk mifik sözü olan "Sa.ul" sözünün qıssalmış formasıdır. Avropa və latin mifologiya ədəbiyyatında və dilində,"günəş" və "gün"ə ,"Sol" deyib işlətdikləri mifik termin də ,"Sal"ın başqa fonetik variyantıdır.Deməli belə nəticə alınır ki Sulduz adının birinci hissəsi olan «Sol» sözünün mənası, gün ya günəşdir və həmçinin Avropada və latinlərdə «Sol», gün ya günəşin mifik və mifolojik adıdır və mifologiya ya mifolojik

ədəbiyyatında bu adı və termini kullanırlar.Bizə görə "L","N","M" səslərinin bir-birisinə çevirilmə qanununa əsasan, türk dilindəki "zal" / "sal" /"sul"/ "sol" (= gün,günəş) sözü "san" (ingiliscə yazılışı Sun) formantını əldə edibdir və bu formada ,indi də ingilis dilində,"gün" və"günəş" mənasında işlənir.

SAL---->SAN / SUL----->SUN / SOL----->SON

Bizə görə bu səs dəyişmə qanununa əsasən,çox güclü ehtimala görə sak / saka türk pəhləvanı Rüstəmin atası "zal" və cəddi "Sam" pəhləvanın adı, hər ikisi də, eyni söz və eyni anlamda,yə`ni "gün" ya "günəş"anlamındadır.Salı Solun variyantı hesab edərək: SAL=SOL SAL-----> SAM / SAL---->ZAL

William.G.Dotty`nin **9** "The Times World Mythology" adlı əsərində mitoloq "Rachel Storm" qeyd edir ki "Sol", Rum// Roma mifolojisində, "günəş tanrısı"dır. "Zal" sözü isə həmən"Sal"ın digər bir fonetik variyantıdır və "ağ", "bəyaz", "kutsal", "müqəddəs" ,"parlaq" ,"işıldar","günəş", "işıqlı", "nurlu","günəşli" anlamlarında işlənilir.Burada digər

bir həqiqəti də ,əldə edirik və o həqiqət budur ki Rüstəm pəhləvanın atası "Zal" ,saka türkəlrinə mənsubdur və nəticə alınır ki Rüstəm özü də bir saka türküdür. Əlbətdə bunu da qeyd etmək lazimdir ki bu ata- oğul,hər ikisi də, saka türklərinin "Su" ya "Si" tayfasındandılar və onların yaşadığı və məskun olduqları yer və bölgə, Sistan vilayəti imiş. Sistan adı yə`ni "si" ya "su" tayfasına mənsub olanların mərkəzi və toplandığı yer deməkdir.Sistan vilayəti adının tərkibində iştirak edən "stan" komponenti isə,əslində anlamı "mərkəz","toplantı,toplanmış və toparlanma yeri","bir yerə yiğılmış","koloniya" ,"cəmlənmə yeri" deməkdir.İran coğrafiya ədəbiyyatında vilayət və əyalət anlamında işlənən "Ostan" ya "ıstan" formasında işlənən söz də,həmin "stan" sözüdür.Bu coğrafi termin bir çox toponim və mega toponimlərin ad tərkibində iştirak edir.Misal üçün:Gürcüstan,Özbəkistan,Qazaxıstan,Qırğızıstan, Bəluçıstan,Kürdistan,Ermənistan,Abxazıstan,Macari stan və s. Bu coğrafi terminin "mərkəz" anlamında olduğuna sbüt, Rus dilində Radiyo və Televizor "stansiyası" sözünü xatırlatmaq olar. Beləliklə nəticə

alınır ki Sulduz adının birinci hissəsi Sul /Sol , anlamı və mənası "qırmızı işıq","qırmızı nur", "qızarmış işıqlı" və məcazi olaraq "gün" ya "günəş" olur. Adın ikinci hissəsi «duz»,və onun başqa fonetik variyantları ,"diz","dis","tis", müxtəlif türk xalqlarının dillərində,ulduz anlamlı sözlərin (ulduz,culduz,yıldız, çiltis,jiltis, sildis kimi) sonluğunu təşəkil edir. «ulduz» sözünə və adına, Altay türklərinin dilində "Yildis", Başqırt türklərinin dilində "Yoldoz" , kazak türklərinin dilində "Juldız" , Qaraqalpaq türklərinin dilində "Joldiz",Qırqız türk dilində"Cıldız",Qumuq türklərinin dilində "Yurduz" , Noqay türklərinin dilində "Yuldiz",Tatar türklərinin dilində"Yoldız",Tuva ya Tiva türklərinin dilində "Sildis",Anadolu (Türkiyə) türkcəsində "Yıldız",Türkmən türklərinin dilində "Yıldız" , Özbək türk dilində "Yulduz" , Uyğur türklərinin dilində "Jultuz" , Xakas türklərinin dilində "Çiltis" , Şor türklərinin dilində "Çilis",Yakut (sak // saka) türklərinin dilində "Sulus",deyilir.
Bu sadaladığımız ulduz adının müxtəlif türk boyları və xalqlarının dillərindəki tələffüzlərə və ifalarına

diqqət edilirsə,görünür ki türk dillərinin əksəriyyətində, "Y" və "S" ilə başlanan sözlərdə, birinci səslər,dəyyşilirlər.Saka türklərin və eyni halda Yakut türklərin dilində , "Y" ilə başlanan sözlərin əksəriyyəti,"S" ilə tələffüz olunur. yə`ni Sulduz mahalının ilk sakinləri olan Saka türklərinin bu mahala qoyduqları"Sulduz" adı,əslində həmən "Yulduz" (= "ulduz") adıdır ki, "y" hərfinin səsini ,"S" hərfinə və səsinə çevirib ifa ediblər. Yuxarıdaki bilgi lərə diqqət edərkən görünür ki "Tuva" ya "Tiva" türkləri də,ulduza dedikləri söz , "Sulduz" sözünə və adına çox oxşar və yaxindir. "Tuva" ya "Tİva" türkləri ulduza ,"Sildis" deyirlər ki bu öz yerində ciddi bir araşdırma və tədqiq aparma tələb edir.Həmçinin Saka türkləri ilə ən yaxın qohumluğu olan Yakut türklərinin ulduza işəltədikləri ad və söz, yə`ni "Sulus" da, "Sulduz" sözünə çox oxşarlığı və yaxınlığı var ki bu yaxınlıq və oxşarlıq Saka və Yakut türkləri arasında ,gözlənilləndir.Yakut türk dilində "Y" səsi ilə başlanan sözlər,"S" səsinə çevəirilir.Misal üçün "yay" sözü olur "say","yabı" olur "sabı","yabıq" olur "sabıq","yaxa" sözü olur

"saxa","yal" olur "sal", və ...

bu izahatla,aydın olur ki Yakutlarla ən yaxın qohumluğu və yaxınlığı olan Saklar ya sakalar ,"Y" ilə başlanan sözləri,"S" ilə əda və ifa edirmişlər. Artıq bu həqiqət hamıya və eyni halda türk tarixi ilə məşğul olanlara bəlli olunub ki Saklar//Sakalar və digər türk dilli xalqlar, etnik və soy baxımından, bir-birilə qohum və əqrəbadılar.Sulduz mahalının ilk sakinləri olan Sak ya Saka türkləri,digər türk dilli və türk soylu xalqlar və tayfalar ilə dil birliyi və mifoloji bağlantıları və qohumluqları var. Bunu da vurqulamalıyıq ki,Sak//Saka türk kultur-mədəniyyəti və eyni halda mifik təfəkürü,Azərbaycanın digər türk elləri və tayfaları və qəbilə lərinin mifik və mifolojik inamları və düşüncələri ilə çox sıx bağlılığı və yaxınlığı olubdur.

Sulduz adının birinci hissəsi yə`ni "Sul " ya "Sol" , bir etnos adı (=tayfa adı,qəbilə adı) kimi də,qədim Azərbaycan ərazisində Alban dövlətini təşkil edən 26 tayfasından birinin adında,özünü əks etdirir. Qədim Azərbaycan ərazisində yaranmış və qurulmuş

"Alban" dövlətinin 26 tayfasından birinin adı "Çul" ya "Çol" olubdur.Azərbaycanın görkəmli tarixçi alimi,Qiyasəddin Qeybullayev,"Azərbaycan türklərinin tarixi təşəkəkülü" adlı əsərində, Albanların 26 tayfasından,Çul //Çol və ya Kul // Kol tayfalarından ad aparır.Bizə görə Alban dövlətinin 26 tayfasından biri sayılan "çul"//"çol", və "kul"(Cul)//"kol"lar(Col) əslində Sulduz adının ilk hissəsi ilə birdir və eynidir, yə`ni Sulduz tanrının adından , onların tayfa adları yaranmışdır.Bizə görə "çul" tayfa adı , (qədim türk dilində "s"- "ç" – "ş" – "yumuşaq k " səslərinin bir- birilə dəyişmə qanunu əsasında) və eyni halda Kul //Kol tayfası da yuxarıda izah etdiyimiz kimi ,həmən Sul // Şul // "kul"/ C(k)ul(qədim latıncə oxunuşu sul və indi isə kul)// Kol // "Kul"dur ki bu iki tayfa da əslində Goranlıq (günəş pərsətlik və mitraism) görüşü və inancına bağlı olan türk tayfalarıdır. Bir ehtimala görə ola bilsin ki həmən "çul"lar ya daha doğrusu "sul"lar,Arazın şimal hissəsindən köçüb indiki Sulduz mahalında yerləşəmiş olsunlar və öz tayfa adlarının əsasında , yerləşdikləri düzə və ovaya ,

Sulduz ("sul"lar düzü – "sul" tayfasına ayıd düz ya düzənlik)adı vermiş olsunlar.

Sulduz ya Solduz adının son bölümü "Duz" və onun digər variyantları (diz,tiz,dis,tis, tuz,tus) ,qədim türk mifolojiyasında,hər bir pədidənin və varlığın ilk başlanışı və ilk gözəsi və ilk özəyı (=sərçeşmə ,mənbə, böyük,ana,ata,əsl,mənşə) sayılırdı. Misal üçün əski türklərin inancına görə,ən böyük,ulu və ilkin dağa ki bütün başqa dağlar ondan törənibdir, «Tos Tau» deyirmişlər. Əski türklərin çoxu, sitayiş və pərəstiş etdikləri müqəddəs dağları,ulu ana və ulu ata sanırdılar və elə də adlandırırdılar. Bu bilgilər və açıklamaların əsasında «Sulduz» adının anlamı və mənası "böyük günəş" , "ana günəş" , "ata günəş" ,"ulu günəş", "nur və işıq tanrısı", "nur və işığın doğanı" və bu kimi anlamlar olur . Beləliklə Sulduz adının bu variyantını (A 2) açıqlayarkən,bizə məlum olur ki "Sulduz" adı , Sak ya Saka türklərinin mifik təfəkkürü ilə bağlı yaranmışdır. Əski mifik inanclar və inamlarla bağlı yeradları, o yerlərdə yaşayan və yaşamış xalqın,soy kökünün açıklanmasına,bizə kömək edir.

İndi isə , Sulduz adının (B) variyantını, yə`ni (Su+ ul+ duz) halətini gözdən geçirdib,açıklamaq gərək : ilk öncə bu tərkibin analizində birinci hissəsi olan "Su"yu müxtəlif yönlərdən təhlil etməli və açıklamalıyıq. Sulduz adının bu tərkibində görünən "Su" haqqında,öncə yuxarıda izahlandırmışıq və qeyd etdik ki "Su" və onun digər fonetik variyantları sayılan "Şu" və "Zu" , qədim türk mifologiyasında "su"dan(=mayə su) əlavə,"nur","işıq" kimi mifik məna çalarları da olmuşdur.Burada yeri gəlmişkən qeyd etəməliyik ki "Sulduz" adının ilk bölümü sayılan "su" nun digər variyantlarından birisi olan "Şu" (Su=Şu) , bizcə türk xalqların və o sıradan Azərbaycan miflər covqasında ,tanrılardan biri imiş və ola bilsin sonrakı min illiklərdə, yeni yetmə (Yəhud,Xristyan,İslam) dinlər və inancların baskısı və sıxışdırmaları təsirində ,bir xeyli miflər və tanrılar kimi, aradan qaldırılıb və ya adı və mahıyyəti dəyişilibdir.Türk- Turan və Azərbaycan mifi və tanrısı olan "Şu", fars dilinə keçərək, özünü indiyə qədər "su- su" sözü və ifadəsinin bətnində,həmən "nur","işıq","işın" və "parıltı" anlamlarında,özünü

qoruyub saxlamaqdadır. Fars dilində bu qədim türk mifik adı,(su- su zədən kimi) işəlnilir və parıldama, işıldama,ulduz işığı və parıltısı mənalarında işlənilir. Bu türk və Azərbaycan mifi və tanrısı "Şu", mezopotamiyadan və yaxud Azərbaycan miflər covqasından ya panteonundan ,Misirə gedib və Misirin miflər panteonunda bir tanrı kimi öz vəzifəsində olubdur.Misir panteonunun "Şu" tanrısı haqqında mitoloq "J.Vio" **10** (J.Vieux), "The Myths of Egypt" adlı əsərində səhifə 28-də yazır : "Şu" ,Misirin 9-luq panteonunda yerləşmiş və "Rə" tanrının yaradılışı sayılırdı. "Şu" ,bacısı "Tefnut" ilə ,Misir tanrılar panteonunun ilk cüftü və ər- arvadı (eşləri) sayılırdı". Biz mitoloq "j. Vio"nun verdiyi bu məlumatdan belə nəticə alırıq ki Misir mifologiyasında və bu mifologiyanın əsasında ,"şu" tanrısı,cüftlikdə (eşlikdə),evlənəmə də,ər arvadlıqda, ilk eş və ilk "ər" sayılır. Bizə görə bu məlumatın əsasında deyə bilərik ki "şu"nun digər bir anlamı və məna çaları da, "eş","ər","həyat yoldaşı" deməkdir. "Şu" tanrının Misir panteonunda ilk "cüft","eş","ər", "həyat yoldaşı" sayılmasına dair,Misir mifolojiyası

uzmanı "Dr.Roy Willis" də, "William.G.Dotty"nin 9 başçılığı altında yazılan "The Times World of Mythology" əsərin səhifə 16-da şəhadət verir və yazır:"...Misirin böyük tanrısı sayılan Atum tanrısı, "nütfə"ni (=isperm) yaratdı və onun nütfələrindən ilk cüft (eş)tanrılar və ər- arvad tanrıları yə`ni "Şu" tanrı və "Tefnut" ilahəsi yarandı. Bu cüft tanrı,tanrılar nəslinin ilk nümunələri sayılırdı". Bizə görə "su"yu,"şu"nun başqa fonetik variyantını göz önünə gətirərək,qədim türk dilində "hərbiçi","hərbi əsgər", "döyüşçü" ,"qoşun əsgəri" anlamlarında işlənən "Su" //"Sü" sözlərinin yaranması da, elə bu qədim türk kökənli "Şu"nun bu məna çalarlarından irəli gəlir.Bir igid o zaman "Su"//"Sü" adlana bilər ki qoçaq və atılqanlıq yaşına çatmış olsun ,döyüş və savaşmaq qabiliyyətinə malik və eyni halda evlənməyə və ev və ailə qurmağa aday və hazir olmuş olsun. Türk dilində evlənmiş yaşına və həddinə çatmış evlənməmiş cavana,"Subay" və ya "Sübay" deməyin səbəbi də,elə həmən "Su"//"Sü" və ya "şu"nun yuxarıda işarə olunan (evliliyə və evlənməyə adaylıq) anlam və məna çalarından irəli gəlir və

törənir. Deməli "şu" və "su"nun digər məna çalarlarından "əsgər","qoşun hərbiçisi" və "ər"(= mərd,erkək kişi,nər qoçaq igid), "koca" və "eş"i də saymaq olar. "Şu"nun Misirdəki qazandığı "ər" (=qadının əri və həyat yoldaşı) anlamı və mənasını, indiki fars dilində işlənən "şu" və "şuy" (=şohər) sözlərində özünü qoruyub saxlamağını görmək olar. Fars dilində qadının ərinə və həyat yoldaşına "Şu", "Şuy" və "Şohər" deyilir. Fars dilində işlənən "Şohər" sözü ,əslində "Şu.ar"dır.Bu mifik söz "Şu"/"Su"/"Sü" tanrının adı və tanrı anlamında olan "ar" sözlərinin tərkibindən və birləşməsindən yaranıbdır və "Şu Tanrısı" (Su Tanrısı/ Sü Tanrısı) anlamındadır.Bu mifik söz və termini fars dilinə keçərək,ona "h" səsi və hərfi sonradan farslar tərəfindən artırlanıb.Sözlərə , Terminlərə və adlara "h" səsi və hərfi artırılması ,fars dilində bir səciyyəvi haldır. Əslində "Sulduz" adının ilk bölümü olan "Su" və ya onun digər vəariyantı sayılan "Şu"nun yuxarıdakı qeyd olunan "qoruyucu","qoruyan" və "bəkçi"(= muhafiz,əskər,müdafiə edən,) kimi mənalar və məna çalarlarını daşıdığını nəzərə

alaraq,bir güclü ehtimala görə ,"Sulduz" adını "Su-ulduz" / Sü ulduz və ya "su – ulduzu"/ Sü ulduzu (= əskər ulduzu , qorucu ulduz ,bəkçi ulduz və bu kimi anlamlarında) bilib, adlandırmaq olar. "Su"/ "Sü", türk dilində əskidən bəri "qoruyucu","qoruyan" (muhafiz, müdafiə edən),"hərbiçi","əskər", "sərbaz", "qoşun piyadəsi","döyüşçü","ər" və "ərən" mənalarında işlənibdir.

Mitoloq "j.viu" **10** (J.Vieux) ,Misirin (əslində türk-Azərbaycan kökənli) "şu" tanrısı haqda belə məlumat verir :"onun adının məna və etimolojisi "göyə qaldıran və aparan"dır. O,Yunan miti "Atlas" kimi,göy və göy üzünün saxlayanı sayılırdı. O ,"Rə" tanrının əmrilə, yer tanrısı "Geb" və "göy tanrıçası "Nut"un arasına buraxılmışdır."Şu", yer və göyü çox möhkəm bir- birindən ayırdı ,"Nut"u qaldırıb göyə apardı və əlləri ilə onu göydə və yuxarıda saxladı. "Şu" eyni halda "hava" tanrısı və tanrısəl boşluğun tanrısı (Atmosfer Tanrısı) sayılır."Şu" hər zaman insan qılığında təcəssüm olunubdur. O,başında dəvə quşu lələyı(=pər) taxılan bir insan kimi göstərilibdir. Deməli dəvə quşu lələyı onun ad anlamıdır. "Şu",

"Rə" tanrının canişini və nümayəndəsi və yer üzünün şəhryarı(şahı və sultanı) oldu".

Sulduz adının,nur və işıq mənasında olan "su" hissə sinin "şu" variyantının izini başqa yurdlarda, o sıradan Hindistanda həmçinin tapmaq olar. Türk kökənli "Şu" //"Şuv" tanrısını "Şuva" və "Şivə" formalarında bərpa etmək olar. Bizə görə bu türk kökənli tanrı,qədim Hind tanrılar panteonunda,ən önəmli tanrılardan biri sayılırdı. Mitolog "Riçard kavındiş" **11**, " Mitholojy An İllustrated Enscyclopedia Of The Principal Myths And Religions Of The World" adlı əsərinin səhifə 66-da qeyd edir ki "bu tanrının adı Hind mifologiyasında sanskritcə "Şava" qeyd olunubdur.Bu tanrı sonralar yeni Hind mifologiyasında adı,"Şiva" kimi gedir.

William.G.Dotty,**9** " The Times World of Mythology" adlı əsərin səhifə 44-də ,Hind mitolojisi bölümündə "Şiva" adlı tanrı haqında yazır :"Şiva zülmət ,qaranlıq və dağıdıcı tanrısıdır və qorxunc şəxsiyyətə malikdir .Onun çevrəsini qorxunc ruhlar, şəbəhlər və devlər (demonlar) əhatə edibdir. Amma

onun yaxşı cəhətləri də vardı ... Şiva`nın Paravatı ilə evlənməsindən,bir sıra tanrılar doğuldular ,o sıradan savaş tanrısı, Genşa ,Ləkəşmi ya sərəsəvəti,...".

Əski Çin tarixinə diqqət edərkən,görünür ki həmən bu türk kökənli mifik adda ,"Şu" sülaləsi və "Şu han" adda hökmüran olubdur. "Şu" , sümer- akad hökmranlarının adı olaraq (eradan əvvəl 2003-2027),eyni halda çox heyrət edicidir ki həmin ad 1800 il sonra (eradan öncə 4-cü yüzillikdə) ,İskəndərin orta Asyaya yürüşü zamanı,yenidən bir türk sultan,xaqan və ya imperaturunun adı olur. Vikipedya, açıq ensiklopedyasına istinadən ," Şu" ("Şu han") — uç çarlıq dövründə 221 — 263 cü illərdə hakimiyyət sürmüş dövlət imiş. "Şu" çarlığının əsası, özünü "han" sülaləsinin davamçısı sayan "liyu bey" (Liu bey) tərəfindən qoyulmuşdur. Bizə görə bu "Şu han" və yaxud "Şu xan" əslində bir əfsanəvi türk sultanı və xanıdır. Bu dediyimizin təsdiqində, N.M.Xudiyev - və Ə.A.Quliyev **12**, "qədim türk abidə lərinin sözlüyü" adlı əsərin səhifə 126-sında, "Şu"nun izahında yazırlar : "əfsanəvi türk xanı və onun fəth etdiyi şəhərin adı".

"Sulduz" adının ilk hissəsi "nur","işıq" mənasında olan "su"yu, əgər göy və səmavi ünsürlüqdan çıxardıb,yerdəki "su"(=mayə su,ab) ünsürü mənasında olmasını nəzərdə alsaq ,o zaman "Şu han" bizcə ,bir variyanta görə qədim türk mifologiyasında adı gedən həmən "Su xan" ya "Su xanı"dır. Çünki "Şu" isə "Su"yun başqa bir variyantı sayılır.Bir daha xatırlatmalıyıq ki türkdilli və türk soylu xalqlar arasında,suya inamın izləri əzəl gündən bəri, yaşamışdır və "Su" onqunu (=bəlgə,simvol) və mifi olmuşdur.Suya və Su tanrısına sitayiş və tapınmanın izlərini özündə qoruyan adətlər və dəbləri , türklərin hərzaman olmuşdur və özünü göstərmişdir. Deməli türkdilli xalqlarda "su tanrısı" ,əsas tanrılardan sayılırmış.Qədim türk xalqları,su tanrısına müxtəlif adlar vermişlər.
Bu adlar,Azərbaycanın görkəmli mifolq alimi Mirəli Seyidovun 8 qeydiyatına görə,bir sırası ona "su iyesi",bir sırası"Yayıq",bir sırası "Qaran" ,bir sırası "yu iyesi",bir sırası "su cəddim",bir sırası "su baba" və bir sırası da"su xan" demişlər.Bizcə ola bilsin ki Çin ərazisində hökmranlıq edən xaqan "Şu han" isə,

həmən türklərin "Su xanı" olmuş olsun. "Su tanrısı" görünür ki türk xalqlarının mifologiyasında çox önəmli yer tutduğundan,onun adına şaman dualarında tez- tez rast gəlinir. Əbdulqadir İnan`ın dediyinə görə,Qam ya Şamanın çağırışı ilə insanların yardımına gələn ilk tanrı, "yayık xan"// "yayıq xan" adlı su tanrısıdır.
"Şu" haqqında araşdırmalarımız,onun müxtəlif fonetik variyantlarının olduğunu və həmçinin onun müxtəlif məna çalarlarına malik olduğunu bizə isbat etməkdədir. Araşdırmalarımız bəlli edir ki "Şu" ,Çin dilində geniş səviyyədə "Şao","Şe","Şi" formantların -da çıxış edir. Çin dilində bu türk kökənli mifik sözü, müxtəlif məna çalarlarını əks etməkdədir. Əlbət də bu məna çalarları ,bizcə türk mifi və tanrısı olan, "Şu" tanrısının özündə daşıdığı karakterlər ,özəlliklər, nişanələr və bəlgələrindən irəli gəlir. Çin dilində "şao"nun anlamları və məna çalarlarından birisi "dal" və "şaxə" deməkdir .Bir məna çaları da "xəbər və mesaj aparmaq"dır. Bizə görə türk dilində "xəbər","səsə salma" ,"car salma" ,"xəbəri səsə salma və yayma" anlamlarında işlənən "Çuv"/"Çov

sözləri ilə Çin dilində işlənən "Şao" sözü eyni kökə və mənşəyə malikdilər .Hətda indiki ərəb dilində işlənən "şayiə" شايعه (=bir xəbəri səsə salmaq və yayma) sözü də, əslində bu türk kökənli "Şu"dan alınmadır. Bu yorum və açıklamanın əsasında , "Sulduz" adının bir mənası və ya məna çaları da "xəbər yayan ulduz" ,"xəbərçi ulduz", "çuv salan ulduz" və "çuv ulduzu"dur. Deməli belə çıxır ki "Şu"//"Şuv"un məna çalarlarından birisi də," yayma" ya "yaymaq"dır.Bizə görə "Su"/"Şu"/"Şuv"un həmin "yayma","yayılma" və "yaymaq" məna çalarları ilə əski Türk mifologiyasının ən önəmli və böyük tanrılarından birisi olan "Yayik xan"ın adı tam bir-birinə sıx bağlılığı var. Yəni "Yayık Xan"ın ad tərkibindəki "Yayık" və "Şu"nun "yayma"/"yaymaq" məna çalarları eyni sözlərdilər və bir kökə malik sözlərdilər.Bir kökdən olmanın səbəbi ondan ötəridir ki "Yayık xan" su Tanrısıdır və su mayə olduğuna görə yayılır və yayılma xasiyyəti və xarakterinə sahibdir.Deməli bu izahatdan daha bir nəticə çıxarılır və o budur ki su tanrısı "Yayık xan"ın ad tərkibində olan "Yayık" və yaxud "Yayıq" sözü,"Su"

anlamındadır.Bizə görə türk dilində mal-heyvanı və malqaranı yayana da "çoban" deməyin səbəbi, həmən "şu" //"şuv"un"yayma","yaymaq","dağıtma", "nəşr etmək" kimi anlamlarından və məna çalarlarından irəli gəlir.Yə`ni nəticə alınır ki qədim ilkin türklər,"şu"//"şuv"un "yayma" anlamından, qoyun sürüsünü yayan və otaran adama ,"şuv.an"//"şub.an"//"çub.an"//"çoban"// "şab.an" ,"şib.an" deyiblər.

"şub"/"çub"/"çob", "şuv"un variyantları sayılır və hamısı eyni sözdür və bir anlam və mənaya malik dilər .Bu araşdırmanın əsasında demək olar daha bir güclü ehtimala görə də,"Sulduz" adını,bir astronmik ad sayaraq,onu "çoban ulduzu" anlamında mənalandırmaq olar.Hətda "otarma" məna çalarına görə,"Sulduz"u "otaran" ya "otar.od"(= çoban odu, çoban günəşi,çoban ulduzu,rəhbər ulduz,baş ulduz, ulduzlar böyükü) mənalandırmaq olar. Bu adların tərkibində iştirak edən "An" sözü, "tanrı" deməkdir. "Şu.an"//"Şuv.an" türk kökənli sözlərinin anlamı və etimologiyası,qədim ilkin türklər arasında"şu tanrısı" ya "şu allahı" deməkdir və "şu"nun müxtəlif məna

çalarları əsasında müxtəlif anlamları ifa edirlər :nümunə üçün "qaranlıqlar tanrısı", "gecə tanrısı" ,"qaranlıqlarda düzgün və işığa hidayət edən" , "qaranlıqdan aydınlığa çıxardan","rəhbər","sürünü hidayət edən","sürüyə başçılıq edən","sürünü güdən", "qoruyucu","gözətçi", "qaranlıqlarda qoruyan" və sayirə bu kimi anlamlar. Bu izahat və açıklamadan həmidə belə nəticə çıxarılır ki söz konusu olan "şu.an"=Şuan/"şuv.an"=Şuvan/ "şub.an"=Şuban/ "şab.an="Şaban/ "şəb.an"=Şəban / "şib.an"=Şiban tərkibləri ,hamısı "şu.an"= Şuan və yaxud "şuv.an"=Şuvanın fonetik variyantlarıdır və hamısı əslində eyni sözlədilər. "Sulduz" adının ilk bölümü olan "Su" və ya onun digər variyantı sayılan "Şu"nun yuxarıdakı qeyd olunan"qoruyucu", "qoruyan" və "bəkçi" kimi mənalar və məna çalarlarını daşıdığı üçün,bir güclü ehtimala görə ,"Sulduz" adını "Su- ulduz" ya "Sü ulduz" və ya "Su – ulduzu" bilib , adlandırmaq olar. "Su" / "Sü", türk dilində əskidən bəri "qoruyucu","qoruyan","əskər", "saldat","qoşün piyadəsi","döyüşçü" ,"ər" və "ərən" mənalarında işlənibdir. "Su"/"Sü"nün Həmin

anlamlar və məna çalarlarına diqqət edərkən, görünür ki İngilis dilində əskər,qoşun hərbiçisi anlamında işlənən "Soldier"(oxunuşu və tələffüzü : solcer) və həmçinin Rus dilində işlənən "soldat" sözü də ("so" və "sa"nı,"su"yun variantları nəzərə alaraq) həmin "Şu" və ya "Sulduz"un ilk hissəsini təşkil edən "su" və daha döğrusu "Sul" ya"Sol" ilə ilgili və ondan alınma və tutulmadır. İngilis dilində "əskər" və "qoşun hərbiçisi" anlamında işlənən "Soldier" sözünə diqqət edərkən,görünür ki "Sulduz" ya "Solduz" sözü ilə çox yaxınlıq və oxşarlıq var və biz "Solduz" sözünü , sold+us kimi bərpa etməliyik . İngilis dilində "Soldier" sözünün oxunuşu və tələffüzü "Solcer"dir. Bizə görə bu İngilis dilində işlənən "Solcer" sözü ,əslində və düzgün ilkin formantı "Solcar"dır."Solcar" sözü bir türk mifik sözdür və iki əski türk mifik sözləri "Sol" (=günəş,gün) və "car" (=nur,işıq,şua) sözlərinin tərkibindən yaranmış sözdür və bütövlükdə bu ingiliscə bildiyimiz və sandığımız sözün mifik lüğət mənası "Günün işığı","Günəşin şuası"dır ,və günəşin şuasını ox / oq/ok kimi nəzərə alsaq , bu ingiliscə

sözün məcazi anlamı və mənası "Günəşin oxu" deməkdir ki əskər və qoşun hərbiçisini də həmin günəş oxlarına oxşadaraq , bu söz yaranıbdır. Bu sözü "Sulduz" ya "Solduz" sözü ilə müqayisə etsək ,görünür ki ikisi də eyni anlamdadır və eyni mənanı daşımaqdadılar. "Solduz" sözü və adındakı son komponenti ,yə`ni "uz" // "us" da ,əski türk mifik sözüdür və anlamı "işıq","nur" və "şua"dır. Demək Sulduz ya Solduz adının anlamlarından və məna çalarlarından birisi də "əskər" ya "Saldat" olmağı da burda isbatlanır.Rus dilində işlənən "Soldat" sözü də əslində "sold.ot" kimi bərpa etməliyik. Sözün son komponentini təşkil edən "ot" həmən atəş ya günün yerdəki bəlgəsi olan "ot" və "Atəş"dir və məcazi olaraq həmən "gün" ya "günəş" deməkdir.Bu Rusca sandığımız "Soldot" sözü də bütüvlükdə anlamı "Günün odu" ,"Günəş odu" deməkdir."Su"/ "Sü"/ "Şu", türk dilində əskidən bəri "qoruyucu", "qoruyan", "əskər", "saldat","qoşün piyadəsi", "döyüşçü" ,"ər" və "ərən" mənalarında işlənibdir. Türk tarixində "Şiban" və yaxud "Şeyban" və "Şeybanilər" adlı türk etnos və tayfasının adı da ,

əslində elə bu türk mifik adı "Şu"dan alınma və ilgilidir.Bu saydıqlarımızın hamısının anlamları da bir kök və qaynaqdandır və "qaranlıqlar tanrısı", "zülmətdən qurtaran tanrı", onların ortaq və ilkin anlamı sayılır və digər məna çalarlarını da özlərində daşiyirlar ki onlardan birisi də "çoban"dır. Bu yuxarıda saydıqlarımızın "çoban"dan əlavə ,digər bir məna çalarları da var və "Çoban" , məcazi olaraq "rəhbər","lider", "sərkərdə" və "başçı" deməkdir. Çobanın işi nədir ?! Qoyun yaymaq və otarmaq. Deməli çobanın bu vəzifəsi əsasında,"şiban" sözünün əsas özəyi və kökü sayılan "Şib" hissəsi, eyni halda "qoyun"anlamında da götürülüb və işəlnilibdir.Yə`ni "Şu" /"Şuv" ya "Şiv"//"Şib", qoyun anlamını və yaxud məna çalarını əldə edibdir. "Şiv" ya "Şib"in sonradan "qoyun" anlamı və məna çalarını əldə etdiyinə dair,ingilis dilindən sitat və sbüt gətirmək bizim iddianın isbatına çox yardım edə bilər.İndiki ingilis dilində görünür ki qoyuna "şip" (ingiliscə yazılışı "Sheep") deyirlər və bu qoyunu yayan və otarana da "şiperd" (ingilizcə də yazılışı Sheepherd) deyirlər. Çobanın işi qoyunu və

sürünü sürməkdir.Deməli "sürmək" də, "şu"//"şuv"//"şiv" //"şib" və "şib"in fonetik variyantı (b ----> p)sayılan "şip"in (ingilizcə tələffüzü : Sheep) digər bir anlam və məna çaları ola bilər. Bu səbəbə görədir ki sürücüyə "Shoffer"(Şoffer) deyilir."Şoffer" əslində "Şuv.ar"dır ,yə`ni "Şu"//"Şuv"//"Şub" tanrısı və sonradan zamanla onda fonetik dəyişiliyi üz verib və sonda indiki "şofer"/Shoffer formantını əldə edibdir.
Şub.ar /Shub.ar----> şuv.ar / Shuv.ar----> şuf.ar/Shuf.ar ----> şuf.er/Shuf.er ----> şoffer/ Shoffer (=sürücü, sürən ,hidayət edən)

Görünür ki "Sulduz" adı , çox geniş mənalı və neçə yönlü və çox şaxəli bir söz və addır və bir çox mənalara sahib bir addır.

"Sulduz" adının ikinci hissəsini (su+ul+duz) əski türkcə mifik sözü "ul" təşəkil edir. "ul" , türkcə olan "al" sözünün digər fonetik variyantı sayılır və anlamı qədim türk mifologiyasında "qırmızı" , "uca" ,"yükəsk","qüdərtli" deməkdir.Qeyd etmək lazimdir ki türk dilində "al" sözünün neçə yönlü müxtəlif və

bir- birindən fərqli mənaları var. Azərbaycanın mifoloq alimi "Mirəli seyidov" **8** "al" haqqında anlamlarını belə qeyd edibdir :

"hilə" ,"aldatmaq" , "su pərisi" , "soy" , "nəsil" , "dudman və xanədan"(= ərb dilində) , "cəhənnəm".

"al" sözünün bu anlamları ilə bağlı , bir çox türk dillərində mürəkkəb sözlər və mifik adlar yaranmışdır. Misal üçün "al qarısı" ,"al arvadı" ,"al bastı" kimi adlar. Türk dilində "al" sözünün önəmli mifik mənalarından,"müqəddəs" və "kutsal", "ulu","güclü","əzəmətli","ali","ülvi","uca və yükəsk qırmızı"dır. Bu mənadan (yükəsk və qırmızı) məqsud ,"gün" və ya "günəş"dir. Rus yazarı V.F.Purşanski **13** və digər bir sıra rus Türkoloqları, "al" sözünün türk dilli xalqların "od" ,"atəş" və "ocaq" ilahəsi olduğunu qeyd ediblər."uca" ,"yükəsk" və "qüdrətli" mənası verən "al",uca günəş tanrısını və günəşin yerdə bəlgəsi sayılan "od ilahəsi"nin adı olmuşdur.

Deməli "al" sözü "od","atəş","ocaq" ,"od və hərarət"

və "gün" ya "günəş" ilə ilgilidir və "od ilahəsi"dir və "günəş tanrısı"nın bəlgəsi və simvoludur."al" və ya onun digər fonetik variyantı sayılan "ul", Sulduz adının birinci hissəsi olan "su" ilə birləşərək,"su-ul", "Su.ul" formantını əldə edir və ardıcıl təkrar gələn iki "u" saiytin birisi düşərkən,"Sul" ya "Sol" formantını əldə edir.

Su+ul=su.ul ----> sul …… / so+ol=so.ol -----> sol

Sol /Sul tərkibi bütövlükdə "yükəsək qırmızı günəş" mənasındadır.

Sol sözünün həmin mifik anlamına görə,əski türklər və daha doğrusu "protürəklər" (=ilkin türklər), onu "Sağ" sözü ilə birlikdə,"sağ – sol" kimi səmt və cəhət bildirən anlamda həmçinin işlədiblər."Sağ" sözündə ki "Sa" və "Sol" sözündəki "so" , hər ikisi də "su" ,"sə" və"si" sözlərinin fonetiki variyantıdır.

"Sağ" sözü əski türkcə mifik sözü, "Sa"(=işıq,nur, bərq) və "ağ"(=ağ rəng , tanrı rəngi, tanrı, ilahi ,açıq-aydın) sözlərinin tərkibindən yaranmış sözdür və bütövlükdə mənası "işıq tanrısı" və "nur tanrısı" deməkdir. "Sol" isə, "sa"nın başqa variyantı olan

"So" (=işıq,bərq,nur) və "ul" (=yüksək,uca,qırmızı, qızaran,qızarmış, od,atəş, qutsal və müqəddəs) sözlərinin tərkibindən yaranmış mürəkkəb sözdür və anlamı bütövlükdə "yüksək qırmızı işıqlı" və "qırmızı işıqlı günəş tanrısı" deməkdir.

SA+AĞ=SA.AĞ ----->SAĞ .....
SO+UL=SO.UL------> SOL

"sa.ağ" sözünün qıssalmışı "sağ"ın elə bu mifik mahiyyəti və anlamına görədir ki ondan qədim türklər digər bir mənaları da törədib öz dillərində işlədiblər.Qədim türklər "sa.aq"// "saq"//"sağ" sözünün ağlıq və işıqlığını yetirən anlamından, "düzlüyü ","sağlamlığı və səlamətliyi","açıq-aydınlığı","həqiqəti","aşkarlıq" yetirən digər müxtəlif söz ya terminlər yaradıblar. "sağ", "günəş"dir. "gün çıxandır", "işıqlıq"dır, günəş hər yeri işıqlandırır və hər nəyi aşkara çıxardır, faş edir. Günəş və onun işığı,düzlüyü ,həqiqəti bildirən və aşkara çıxardandır. "Sa.ul"//"So.ul"//" SOL" isə günəşin qızarması və közərməsi ,od və günəşin sönməsi deməkdir.Türklər "sa.ul"//"so.ul"//"sol"un

"ul" hissəsinin "qızarma" və "közərmə" ,"sönüb-bitmək" anlamından ,"ölüşgəmək" və "ölüm" kimi sözlər və terminləri yaradıblar.Sol tərəf qərbdir (=batı) ,günün batan yeri və uful etmə və ölən yeridir. Türklər üçün gün çıxan (sağ), daha üstün sayılırdı, çünki günəş ilə və günəşin çırtdaması və dirilməsi və zahir olması ilə bağlı idi və onun üçün də günəşə tapınan türk etnos və tayfaları ,öz yurdlarını "sağ" tərəfdə salırdılar. Biz bu əsasda bu nəticəyə çatırıq ki türk dilinin bir çox sözləri mifoloji düşüncələr ilə bağlıdır.

"Sulduz" adının üçüncü hissəsini (su+ul+duz) əski türkcə mifik sözü "duz" təşəkil edir.Adın bu hissəsini öncə açıklamışıq və qeyd etdik ki Sulduz ya Solduz adının son bölümü "duz" və onun digər variyantları (diz,tiz,dis,tis, tuz,tus) ,qədim türk mifolojisində, hər bir pədidənin və varlığın ilk başlanışı və ilk gözəsi və ilk özəyı (=sərçeşmə ,mənbə,başlanış,başlanğıc, böyük,ana, ata,əsl,mənşə) sayılırdı. Misal üçün əski türklərin inancına görə,ən böyük,ulu və ilkin dağa ki bütün başqa dağlar ondan törənibdir, «tos tao» deyirmişlər. Mirəli seyidova

görə **8** əski türklərin çoxu,sitayiş və pərəstiş etdikləri müqəddəs dağları,ulu ana,ulu ata sanırdılar və elə də adlandırırdılar. Bu bilgilər və açıklamaların əsasında «Sulduz» adının anlamı və mənası "günəş ulduzu","böyük günəş tanrısı" , "ana günəş / günəş ana ,"ata günəş / günəş ata","ulu günəş","nur və işıq tanrısı", "nur və işığın doğanı" və bu kimi anlamlar olur. Gün ya günəş, ən qədim çağlardan bəri ta islama qədər,türklərdə və türksoylu xalqlarda, ən yükəsk və ülvi inam və inanc olub. Günəşə inam, Oğuz türklərində və başqa türklərdə, türk xalq inanclarının ən əskisi sayılır,özəlliklə də Oğuz türklərində,həqiqi Azərbaycan və onun bir parçası olmuş Qafqaz diyarında və ərazisində ,Azərbaycan türk mənşəli miflər və tanrılar panteonunda ,günəşə inam özəl və gözə çarpan şəkildə yer tutmuşdur və günəş ən böyük tanrı sayılırmış və bunun üçün də, həqiqi qədim Azərbaycanın və onda yaşayan müxtəlif türk soylu və türkdilli xalqların ən qədim əfsanəvi və mifik anlayışları,günəş ilə ilgilidir. Oğuzun böyük oğlu "gün xan" sayılır və onun üçün qızıl çadır tikdirir.Oğuzun, gün xan üçün belə çadır

tikdirməsi,Oğuzların günəşə böyük bir inamın olduğundan irəli gəlir. Bunu türklərin,Oğuz türklərin görüşündə "günəş"i ya günü dünyanın yaradıcısı sanmaları ilə bağlamaq olar. Türklər ,Oğuz türkləri, günəşi əbədiyyətin rəmzi və bəlgəsi kimi qəbul edirmişlər. Oğuz türkləri elə inanırmışlar ki xaqana xaqanlığı,göy (günəş) bəxş edir və hətda geri də ala bilər. Günəşə inam və ona tapınmaq və pərstiş etmək,Turan(Türkistan) türk tayfaları və ellərinin,o sıradan onun bir hissəsi olan qədim böyük Azərbaycan ərazisində yaşayan türk tayfa və etnosların mifik- fəlsəfi düşüncəsi və təfəkkürünün əsas qol və dalı sayılırdı və bu səbəbdəndir ki günəş minilliklər boyu ,bu xalqın və o sıradan Azərbaycan türk xalqının miflərində və mifik nağıl və dəstanlarında öz həyatına davam edib və müxtəlif mifik obrazların yaranmasına səbəb olubdur.Günəşə inam,türk xalqların və o sıradan Azərbaycan xalqının mifik nağıllarında hərzaman özünü əks etdirir. Günəş mifi bir çox hallarda,türk xalqlarda və o sıradan Azərbaycan mifik hekayələri və nağıllarında,zoomorfik onqun kimi özünü göstərir.

Azərbaycan xalqının soy kökündə iştırak edən bir sıra qəbilələrin və tayfaların adları,onların mifoloqya ,inamları və fəlsəfi görüşləri ilə sıx bağlıdır. Belə qəbilə və tayfə adlarının etimoloji təhlili və analizi , qəbilənin və onun tərkibindəki xalqın ibtidai ,ilkin mifoloji və fəlsəfi inam və dünya görüşlərini bizə açıklamaqdadır. Bizə görə tarixdə adı və sözü gedən "Sulduz" etnonimi, əslində qədim türk etnonimi sayılan "Sak"//"Saka"larla və onların "Si"//"Su" adlı önəmli qolu ilə bir kökdəndir və qohum tayfa sayılır. yə`ni əski "Sulduz"//"Solduz"lar, Sak / Saka türklərinin bir qolu və önəmli hissəsi sayılır. Çinlilər isə Saq// Sak//Saka türkəlrinə "Se"/"So" deyirmişlər. Mirəli seyyidov **8** "Azərbaycan xalqının soy kökünü düşünrkən" adlı əsərinin 239-cu səhifəsinin ətək yazısında "Su" türk qəbiləsi haqda qeyd edir ki "Su","Se"nin fonetik variyantıdır və Çinlilər "Saq" // "Sak"lara, "Se" deyirmişlər.

Biz burada yenə də xatırladırıq ki Türk // Turan tarixində və ərazisində yaranan toponim,etnonim və etnotoponimlərin adları, qədim türk xalqların (və o sıradan qədim Azərbaycan)dillərində qaynaqlanıbdır

və bunların hamısının kökü və özəyi,qədim Türk // Turan və Azərbaycan mifologiyasında yatıb və bütün bəşəriyyətin mədəniyyəti,uygarlığı ,mə`nəvi varlığını yaradan və tarix sürəsində onu qidalandıran, çiçəkəlnədirən,məhz həmən türk-turan mifologiyasıdır. Adlı-sanlı indiki Çin,Hind,Misir, Yunan,Roma kimi nəhəng sayılan uygarlıqlar və mədəniyyətlərin,mədəniyyət və uygarlıq meydanında cövlan edib at çapdırmaları da, məhz türk-turan mifologiyasının zəngin mə`nəvi xəzinəsindən yararlanmaları və onun miflər süfrə sindən qidalanmaqları səbəbindəndir. Onlar(yuxarıda saydığımız mədəniyyətlərin sahibi) elə inanırlar ki mədəniyyətlərinin ilk əsas təməli və özəyi, özününkilərdir və bu həqiqəti bilməyirlər ki uygarlıqlarının əsas kökü və özəyi ,qədim türk-turan və xsüsən də qədim Azərbaycan uygarlıq və mədəniyyətində və özəlliklə də mifologiyasındadır. Onlar bu baxımdan, türk xalqlarına və əsasən Azərbaycana borcludular.Azərbaycan,qədim türk-turan dünyasının yə`ni şərqi Asya,orta asya (= Türkistan) ,Sibirin köç edən ilkin türk soylu və türk

dilli tayfaları,qəbilələri və qəbilə birləşəmələrinin terminalı,keçid yolu ,toplanma yeri və eyni halda,ordan da dünyanın başqa digər qitələrinə və ərazilrinə köçmək üçün, köç və yayılma mərkəzi olubdur.Çox çətin və nadir bir türk soylu və türk dilli xalq ya qəbilə birləşəməsi tapılsın ki ,Azərbaycan terminalı və kanalından geçməsin və bu ərazidə oturaq etməsin, və özündən bu soydaş yurdunda bir iz qoymasın və buraxmasın. Azərbaycan türk mədəniyyəti və uygarlığı da, həmən türk-turan ağacının bir ana dalı olaraq,öz yerində və növbəsində,dünya bəşəriyyət uygarlığı və mədəniyyəti tarixində və başqa xalqların mədəniyyəti və mənəvi varlığının qazanmasında və onun inkişafında,çox böyük və danılmaz rolu olubdur. Biz qədim türk xalqların və o sıradan Azərbaycan xalqının mifoloji görüşlərini öyrənməklə,türk xalqının soy kökünün qidalandığı fikir qaynaqlarını və onların keçib gəldiyi yolu araşdırmış oluruq.

Biz buraya qədər "Sulduz"//"Solduz" türk etnoniminin ,qədim etnoloji tarixini və

etimologiyasını açıklamağa çalışmışıq.İndi isə çalışırıq ki "Sulduz" ilə yanaşı "Nəqəde" yer adının yaranmasının mifoloji nədənlərini və köklərini,ən ilkin çağlarda arayıb -axtaraq. Azərbaycan toponimləri,etnotoponimləri, coğrafi yer adları və onların həqiqi və real onomastikasını düzgün şəkildə araşdırmaq,düzgün ilkin formasını bərpa etmək və kök-mənşəyi və etimologiyasını açıklamak,bu qədim türk bölgəsinin bir çox tarixi sirrilərini açmaqda bizə yardımcıl olacaq və eyni halda dünya tarixi və coğrafi tarixinin bir xeyli gizli qalmış gizlərindən pərdə götürücəkdir.

Nəqəde yeradinin etimologiyası haqqında müxtəlif yazarlar və tədqıqatçılar tərəfindən yorumlar və açıklamalar verilibdir ki biz burda onların bə`zilərinə işarə edəcəyik. İsa Yeganə **4** "negahi be tarix və fərhəng il qarapapax" adlı əsərinin səhifə 17 – də "vəche təsmiye Nəqəde" adlı bölümündə , Nəqəde adı haqqında deyilən və yazılan yorumları və nəzərləri gətiribdir.Yazar qeyd edir ki "Nəqəde" sözü və ya adı,ev pəncərəsinin (aquşkası) pərdəsi və bez üzərində aparılan gözəlliklər və məlilə duzidən

(məlilə tikmə) ibarətdir. Müəllif artırır ki bu şəhərin adının "Nəqəde" adlanmasında, bə`zilərin etiqadı bunadır ki "Nəqəde" kəlməsinin kök və mənşəyi moğolcadır və "Nuğadi" , "Nuğaday" , "Nuğatay" və "Nağadi" sözlərindən alınmadır. O, yazır : amma başqa bir nəzər də bu haqda vardı və deyilir ki Qarapapaq elinin Sulduza gəlməsindən öncə ,indiki "Nəqəde" şəhərin yerində bir kənd ya qəsəbə var idi ki "Nucəde" , "Nuqəde" və "Noqeday" adlanırdı və sonralar "Nəqəde" formantına çevirildi. Nəqəde adı haqqında bir nəzəriyyə də budur ki bu şəhərin adı "Borçalı" (Qarapapax) elin elxaninin adı, yə`ni "Nəqi xan"ın adından alınıbdır və bu şəhər əslində "Nağı deh" ya "Nəqi deh" (= deh Nəqi // Nəqinin kəndi) adlanıbdır. Daha bir nəzər də xalq arası var ki deyilir : "Nəqi deh" ya "Nəqəde" sözləri əslində "Nə qədə" ya "Nə qədər?"imiş. İsa Yeganə **4** sonra "fərhəng amə il qarapapaq" adlı əsərin yazarı "Yusif Qəhrəmanpur"a **5** istinad edir və qeyd edir : "bizə görə Qəhrəmanpurun Nəqəde adı haqqında işarə etdiyi qeydiyat və nəzər, ən düzgün və sənədli yorum və açıklamadır. Qəhrəmanpur **5** bir nümərəli

sənədində, Nəqəde (Nağadey) adı haqqında,bu əqidədədir ki "Nəqəde" ya "Nuğaday" (Nuğ – Nuğa), moğol sərkərdələrinin birisinin adıdır.Bu sərkərdə, Hölakunun qaynı imiş və adın tərkibində olan "day"(tay) , türk və moğol dillərində,"tərəf" ya "həmta"(=tay , eş) anlamındadır və "Nağda" sözü eyni halda, türkcə istilahən məlilə tikməyə həmçinin deyilir". Digər tərəfdən həmçinin 1245 hicridə Sulduz bölgəsinin Qarapapaq elinə verilməsinə dayir,Fəthəli Şahın Qarapapaq elin elxani,"Nəqi xan borçalı"ya verilən sənəddə,belə bir cümlə gəlibdir : "deh-i Nuçə deh məşhur be Noqəday ra bə rəsm-i «siyurğal» be şoma dadim..." yə`ni "Nəqəde yə məşhur olan "Nüçe deh" kəndini "siyurğal" dəb və ənənəsi olaraq, sizə verdik.(sənd No. 1) .
Nəqəde – Sulduz haqqında qələm vuran digər bir yazar Mehdi Rəzəvi, **2** "tarix il Qarapapaq" adlı əsərinin səhifə 206-da ,Nəqəde adı haqqında ,həmən yuxarıda qeyd olunan nəzərlərə və nəql-i qovllara oxşar nəzərləri bir az fərq ilə gətiribdir. O, işarə edir ki "Nəqəde" sözünün əsl kökü ,bu son on illiklərdə, savadlı və elm adamları arasında mübahisə li bir

mövzuya dönübdur və bə`ziləri buna etiqadları var ki bu adın əsli, "Nəqi deh"dir və Qarapapaq elinin başçısı "Nəqi xan Bozçəlu"ya mənsubdur.Nəqəde-nin bir sıra ahl-i qələm və kultur adamlarından nəql olunub ki bu kəlmənin əsli"Nəqatay"və "Nəğatay"dır və moğol istilası dövründə "zərrinə rud" və "siminə rud" çayları ,"Cığatay" və "Toğatay" adlanıbdır. və hakəza "Gadar" çayı da "Nəqata" ya "Nəğatay" adlandı və ardıca bu çayın adından, həmin kəndin adında, istifadə olunubdur. Cığatay adında , "cığa" (cə`cəğə də ondan alınıbdır) , "parlaq" ," qızıllı" , fars dilində həmən "zərrinə" anlamındadır. "Toğatay" çay adında , "toğ" sözü , "möhkəm bənd" deməkdir. "Bənd" sözünü misal üçün "çini bənd" sözünün tərkibində görmək olar. Qırılmış çini qab-qacaqı bənd vurma kimi və həmçinin çat götürmüş saxsı və sıfal qab-qacaqda (yün , əhəng və sirişin qatılması ilə düzələn maddə) çatlara bənd vurma kimi . "Toğa" , anlam və mənası : möhkəm, bərk,bərkimiş,sift olmuş deməkdir. "Tay" sözünün mənası,"sahil" və "kənarə" deməkdir. "Cığatay" tərkibinin mənası , "sahil zərrin" (=qızıllı sahıl) ,

"parlaq və qızıllı sahili olan" deməkdir. Miyandab`da zərrinə rudun belə bir özəlliyi və xasiyyəti vardı. onun sahili və kıyısı nisbətən qumlu və qumsaldır. "Toğatay" sözünün anlamı və mənası,"möhkəm və sərt sahil" , "möhkəm və sərt sahili olan" deməkdir. "Siminə rud" çayının da belə möhkəm və bərkimiş ət torpaqdan, sahili var. "Nəğa" sözü haqqında deməliyik ki "Nəğədə", məlilə dikiş üzərində aparılan bəzəkli şeylərin bəzəyi və süs anlamındadır ki ona "məlilə tikmə" (=məlilə duzi) də deyilir. Diqqət olunmalıdır ki "nəğədə" , "nəğa" ilə fərqlidir, məgər iddia oluna ki əslində "Nəğədə tay" imiş. Mehdi Rəzəvi sözünün sonunda, bu bəhs və mövzuya yekun vurub öz inandığı şəxsi nəzərini belə bildirib deyir : " mənim nəzərimə görə, "Nəqəde"nin əsli və düzgünü, Əbbas mirzanın , Nəqi xan bozçəluya xitab, sadir olunmuş ikinci hökmündə qeyd olunandır ki öncə şərh və izah olunubdur, yə`ni (nun və qafın fətəhə silə)"Nəqəday"dır."Nəqə",boz rəngə çalmış açıq həna rəngidir və atlarda bir növ rəng növüdur."Day" yəni ərkək cavan at deməkdir və "Nəqə day" isə, yə`ni "nəqə rəngində olan ərkək

cavan at .Bu adda (nəqəday) ərdəbil–meşkin arasında bir kənd var və eyni halda "Heris" ətrafında böyük bir kənd adıdır ki xalqın dilində"nəğəday" və səbti və dövlət əmlak sənədlərində "Nocə deh" yazılıbdır. Belə çıxır ki Əbbas mirza divan-dərbarında,bu iki kəndin adını "Nocə deh" formasına çeviriblər.Biz buraya qədər Sulduz-Nəqədeh haqqında qələm vuranların müxtəlif nəzərlərini və düşüncələrini və eyni halda istinad etdikləri nəzərləri sizə göstərdik.Görünür ki nəzərlər bə`ziləri bir-birinə oxşar və eynidir və bə`ziləri isə bir-birindən fərqli və çeşitlidir və müxtəlif açılardan bu toponimin adının açıklamasına yanaşılıbdır.

Nəqəde – Sulduz haqqında tədqiq və araşdırma aparan müəlliflərin əsərlərinə diqqət yetirərkən, üst-üstə və ortalama götürüncə ,görünür ki Sulduz adının açıklamasında olduğu kimi,Nəqəde-nin ad etimologiyası haqqında verilən və qəlmə gətirilən istinadlar,dəlillər və açıklamalar, təqribən eynidir və çox az bir-birindən fərqlidir.Verilən yorumlara görə qeyd etmək lazimdir ki "Nəqəde" yeradının kökü və mənşəyi haqqında xalq arasında deyilən rivayətlərə

istinad etmək,bizi tarixi həqiqətlərdən uzaqlaşdırıb naməlum cəhətlərə yönəldə bilər və əsilgərçəklərdən yolumuzu çaşdıra bilər.

Türk ərazilərində olan yeradları, ən qədim bəşəri yaşayış məskənləri olduğuna görə, ən qədim tarixlərə malikdilər və bu əsasla , adları da ən qədim dövrlərə ayiddir. Xalq, ümum kütlə,yeradlarının zahiri görünüşü əsasında, bir sıra yorumlar edirlər və çün elmi- tarixi,dilçilik , lüğət şünaslıq, mifoloji , arkeoloji və digər lazim olan elmlərə və bilgilərə malik olmadıqları üçün, həqiqətdən uzaq və qeyr-i real,uydurma,oxşatma və bənzətəmə yorumlar, tarixlər və təfsirlər yaradırlar. Burada təkcə bir çox önəmli məsələ var ki onu qeyd etmək bütün yerli və soydaş tədqiqatçılarımız və araşdırmaçılarımız üçün vacibdir və o budur ki, Azərbaycan yeradlarını araşdırarkən ,öylə olmasın ki düyünü düyün üstünə vurmuş olaq , və ya adın indiki zahiri və görünüşü əsasında təkcə türk qamusları və lüğət kitabları əsasında yorub açıklayaq. Azərbaycan yeradlarını təkcə bir elmin əsasında, araşdırmaq mümkün deyil və yorumladığımız yorumlar qeyr-i real və

həqiqətdən uzaq və uyarsız bir yorumlar olacaq və bu soyun və xalqın möhtəşəm dünya görüşü, tarixi və mədəniyyəti, yenə də gizli və üstü örtülü qalacaq. Bunu unutmayaq ki Azərbaycanın hər bir yeradı , türk və Azərbaycan tarixinin danılmaz sənədi və faktıdır və eyni halda bir maddi mədəniyyət nümunəsi kimi ,Azərbaycanın keçmişindən və tarixindən bilgilər və informasya verən bir qaynaqdır. Azərbaycan yeradlarının indiki zahiri görünüşü, çox azdırıcı və aldadıcıdır çünki zaman keçdikcə, onun səslənməsində və tələffüzündə dəyişiliklər üz veribdir və öz həqiqi səslənməsindən uzaq düşübdür və başqa bir oxşar sözə çevirilibdir ki əsl ad və söz ilə çox fərqli anlamdadır. Bu məqalədə adı gedən "Nəqəde" sözünün həqiqi və tarixi etimologiyasını açıklamaq üçün bəşər tarixinin ,özəlliklə də qədim türk ,və o sıradan Azərbaycan mifik və mifoloji tarixi okyanının dərinlikilrinə dalmaq gərəkir.Yaxşı bilirik ki dünya mədəniyyətinin yaranmasında ,inkişafında onurlu və fəxr edici yeri tutan Azərbaycan xalqının soy kökü ,etnogeni, çox mürəkkəb tarixi proses keçiribdir. Bu

konuda da,qabaqki məqalələrimizdə olduğu kimi ,türk və Azərbaycanın uzaq keçmişinə boylanıb baxmaq gərəkir. Bütün toponimiya (yeradları) araşdırıcıları və tarixçilərin səthi, zahiri lüğət görünüşü əsasında yorumlarına rəğman ,yenə də bir daha qeyd etməliyik ki ümumiyətlə Azərbaycan xalqının toponimiyası,özünə xas bir özəllikə malikdir.Bu özəllik də bundan ibarətdir ki Azərbaycan yeradlarının əksəri, Azərbaycanlıların (türklərin) zaman və tarix süzgəçindən geçirilmiş mifik görüşləri və inamlarının əsasında yaranmışdır. Bizə görə "Nəqəde" yeradı da, Azərbaycan türklərinin mifoloji görüşləri və təfəkkürlərilə bağlı əski mürəkkəb türk sözüdur.

Biz bu yeradını açıklamaqda lazim olan böyük və güclü ehtimalları araya qoyarkən,bu adın həqiqi özə yinin üzə çıxmasına çalışırıq . Bu adı "Naq"+ "atey" = "Naqatey" və həmçinin "Naq" + "ada" = "Naqada" kimi bərpa etmək olar. Əski türk dilində işlənən mifik "Naq" //"Nag" sözü, "böyük", "əzəmətli" ,"iri həcimli","çox yoğun","iri peykərli", "iri cüssəli" və "nəhəng" anlamlarında olub və

Azərbaycanlıların indiki danışıq dilində, "naqqa" sözündə özünü saxlayıb əks etdirir. Bizə görə "Nəqəde" adı çox güclü bir ehtimala görə "maq"larla da (= din böyükləri,din başçıları moğ larla) bağlı olmuş ola. Nəqəde adının ilk hissəsi olan "Naq" sözü qədim türk dillərində B- M- N hərfləri və səslərinin bir-birinə çevirilməsini nəzərə alaraq, əslində "maq" olmalıdır. "qədim Azərlər cəmiyyətlərində hər grüp və tayfanın "maq" ya "qam"larının özəl yerləri olmuşdur. Onlar elin,tayfanın hakim mərtəbəsində yerləşirdilər və xalqın din və inancla bağlı məsələlərinə,xəstəliyinə, dərman və tədavisinə yetişərmişlər. Toponimiya aləmində "maq" və onun əksi olan "qam"la yaranmış və ya tərkibləşmiş toponimlər və yer adları yetərincə varımızdır. Bizə belə aydın olur ki moğ , mağ , maq , mak sözləri eyni sözəlrdilər. Eyni halda qədim ilkin türk dillərində "B" - "M" - "N" səslərinin bir-birilə əvəzlənməsini nəzərə alaraq, "mak", "mag","nak", "nag", "bak", "bag" ,"bəg" sözləri də, kök baxımından , türk dilinin qamusunda,eyni sözəlrdilər. Bizcə bu əsil Azərbaycan şəhər adını,

"Naqad"//"Naqat" və Oy//Öy//Ey sözlərinin tərkibindən yaranmış bir ad kimi də, izahlandırmaq olar. Naq+at+oy=Naqatoy / Naqatey
Burada adın ilk hissəsi olan "naqad" ya "naqat", əslində "naq" sözü və"at"/"et"/"ut" (türk- moğol tayfa adlarının sonunda gələn sonluq və ya şəkilçidir) və qədim türk sözü "oy" (=yuva,ev, məskən,yurd,vətən) sözlərinin tərkibindən yaranmış bir mürəkkəb addır. Bu toponimin adında, "naqad" //"naqat"ın məna və anlamı "naqlar"dır və "oy" isə anlamı "ev,məskən,yurd- yuva" deməkdir və bütövlükdə onun mənası "naklar yurdu", "naqlar ölkəsi" deməkdir. "n","m" səslərinin bir-birinə əvəzlənməsini nəzərə alsaq,və "maq" ya "mak"ı ,"nak"ın digər fonetik variyantı qəbul etsək, o zaman "naqatey" //"naqade" yeradının anlamı və mənası "maqlar yurdu", "moğlar məskəni","böyüklər və ə`yan- əşraf yeri" deməkdir. Öncə yuxarıda qeyd etdik ki bu adı "Naq"+ "atey" = "Naqatey" kimi bərpa etmək olar və vurquladıq ki "naq" , "maq" (moğ) sözünün başqa fonetik variyantıdır. "Atey" bizə görə "atay" sözünün fonetik variyantı olaraq,

"ata-tanrı", "böyük tanrı" , "müqəddəs" və "qutsal" deməkdir. "Atey" sözünün bu anlamlarına görə, o zaman "Nəqəde" adının anlamı,"böyük müqəddəs tanrı yurdu" , "böyük müqəddəs atanın yurdu" , "böyük ruhani ,müqəddəs atanın yurdu və iqamətgahı" demək olar. Yə`ni daha bir anlama görə Nəqəde ,moğların böyükü və başçısının (moğlar moğunun) iqamətgahı və məskəni sayılırmış. Bu ad əgər "Naq" + "ada" = "Naqada" kimi bərpa edilsə və "ada" sözünü , "ata" sözünün fonetik variyantı hesab etsək , yenə də həmən anlamlar və mənalar geçərlidir. "Ada" sözünü "su içində quruluq(cəzirə)" mənasında nəzərdə tutsaq , o zaman Nəqəde / Naq.ada adının anlamı "böyük ada(cəzirə)" , "tanrı adası" ,"böyük və müqəddəs tanrı adası" deməkdir. Burada lazim görünür qeyd edək ki,"naq" və onun digər variyantı "maq" və "baq", zaman sürəsində, əsirlər və minilliklər boyu , müxtəlif türk dillərində , müxtəlif və bir-birindən fərqli anlamlar və məna çalarlarını əldə edibdir. Bu türk mifik adı,zaman-zaman başqa xalqların mifik aləminə və onların miflər covqasına da nifuz edib onların mifolojisində

və miflər galeriyasında və panteonunda özünə özəl yer tutubdur.Əlbət də türk mifləri və başqa yurdların və xalqların miflər covqasına daxil olarkən,onların daşıdığı vəzifələrdə və xarakterlərində az-çox bəlli olunmuş dəyişiliklər də üz veribdir, amma bir çox hallarda əsas türk kökünü və özəyini qoruyub saxlayıblar. Türk mifi və tanrısı sayılan "Naq.ata"// "Naq.ada", qədim Misir mifologiyasına və miflər covqasına yol taparkən , aşağı (=cənübi,güney) Misir`də "Nil" çayının sahilində ,"Tebes" şəhərinin yaxınlığında bir toponimin adında həmçinin özünü əks etdirir. Bu toponim William.G.Dotty`nin **9** , "The Times World Mytholojy" mənbəsinin qeydinə görə Fir`onlar sülaləsindən öncəki zamanlarda, hökmranlar və hakimlər təbəqəsinin əsil dəfn və basdırılma və mumyalandırma mərkəzi sayılırdı. Türk mifi "Naga", qədim Çin miflər və tanrılar panteonuna (covqasına) girərək "Nugua" adlı tanrıça kimi özünü əks etdirir. Qədim Çin mifologiyası əsasında, "Nugua" əcibə,qeyr-i adi ilbiz (hələzün) şəkilində bir sürüngən tanrıça idi ki göylərdən qopub ayrılandan sonra, yerə gəldi."Nəqəde" yeradının ilk

hissəsi olan türk mifik "Naq" sözünün izini, Hind mifologiyasında və onun miflər covqasında görmək olar. Bu mifik adın kökü və mənşəyı , əski türk mifologiyasındadır və türkcə bir sözdür və əski türklərdən Hind və cənüb-şərqi Asyaya köçübdür. Hind mifologiyasının əsası və binövrəsi başqa millətlərin,özəlliklə də əski türk və Azərbaycan mifik və fəlsəfi görüşlərindən alınma və mürəkkəb bir mifolojik təfəkkür və əndişədir. Türk mifi "Naqa", Hind miflər panteonuna daxil olub və Hind və cənub-şərqi asya mifologiyasında özünə özəl yer və vəzifəyə malik olubdur. Hind və cənub-şərqi Asya mifologiyası üzrə uzman mifoloq Miranda Bruce – Mitford , **9** William G. Doty`nin başçılığı ilə yazılmış "The Times World Mytholojy" əsərinin səhifə 50-də ,Hind və cənub-şərqi Asya mifi "Naga" haqqında belə yazır : "Naga (sanskrit dilində "ilan" anlamındadır) bir interesan və əcibə məxluqdur ki cənub-şərqi Asyanın bütün müxtəlif mif panteonlarında görünür və onun kökü Hind mifologiyasındadır ki bir ilan soyundan danışılır və bu ilan,Hind şahlıq sülalələrinin ən ilkin cəddi

sayılır. Misal üçün Kambociya Enkür sülaləsi şahları belə inanırdılar ki güya onlar "naga" şahzadəsinin nəslindəndirlər.Kambociyadakı "Naga" yeddi başlı ilan kimi görünür".

Biz burada ilk öncə bunu qeyd etməliyik ki "Miranda Brus- Mitford" **9** əski türk dilinə və eyni halda əski türk mifologiyasına dərindən bələd olmadığı üçün, bu mifik söz ya adı,sanskritcə bilir ,halbu ki bu mifik adın kökü və mənşəyi ,əski türk mifologiyasındadır və türkcə bir sözdür və əski türklərdən,Hind və cənub-şərqi Asyaya gedibdir. Biz burada digər bir nəticə də əldə edirik və o budur ki "Naqa" ya "naga"nın digər bir məna çaları da "ilan" ya "əjdaha"dır."Naqa" ya "naga"nın müxtəlif məna çalarları var ki bu məna çalarlarından birisi "ilan" ya "əjdaha"dır.Naga(naqa) və nagalar(naqalar),əski Hind mifologiyasında və eyni halda əski Hindin mifik və mifolojik görüşləri və əndişəsinin ayaq tutmasında və dirçəlişində çox böyük və əsas rol oynayıbdır. Bu əski Hind təfəkkür və əndişəsi,əski Hind bölgəsinin ,ən əski və ilkin mifik təfəkkürü və əndişəsi sayılır və ondan "nagalar dövranı" kimi ad

aparılır.Bu mifik əndişə və təfəkkürün əsl və əsas qaynağı və beşiyi,"Send dərəsi mədəniyyəti"nə ayıddır. William Piroyan`ın **14** dediyinə görə Mohencudaru`dan yeraltı tapıntıların içində bir möhür var ki onun üzərində iki başlı ilan naxışlanıbdır. Bu iki başlı ilan naxışı və əlaməti , "Send" dərəsi mədəniyyəti və kulturunun dağılması və aradan getməsindən öncə,o bölgə də məskunlaşmış yerli əhaliyə ayiddir. Bizə görə send dərəsinin ilkin yerli və aborigen sakinləri 2500 il eradan öncə, əski türklərdən və daha doğrusu əski türk soylulardan və turlardan başqa ,kimsə ola bilməz. Bu bölgənin (=send dərəsi) əski yerli sakinləri sayılan Turlar (türk soylular) bu ayin və dini inancda yalnız əf`i ilanı yox,hətda əjdahanı da pərəstiş edirdilər.İndiki zamanda bu gruppa və ayinə və yaxud məsləkə, "ilanpərəstlər" (ilana tapınanlar, ilanı sitayiş edənlər) və ya "nagalar" deyib adlandırırlar. Bu grup insanlar (=nagalar) ,indi də ilanı və əf`i ilanı sitayiş edirlər. Send dərəsi mədəniyyətinə tabe olan türk soylu xalq, əf`i ilanı , Tanrı sayırdı və onu pərəstiş edirdi. Mifologiya

tədqiqatçıların bir çoxunun nəzərinə görə,sonraki Hind mifologiyası ayinlərinin əsas və önəmli tanrıları sayılan "Brahma"(=yaradıcı və xəlq eliyən tanrı) ,"vişno"(=qoruyucu və qoruyan tanrı) və "Şiva"(= təxribçi,nabud və darmadağın edən tanrı) əski türk kökənli nagalar ayinlərinə ayiddir. Naqatey (=indiki Nəqədeh//Naqadeh) adının izahı və açıklamasında, onu başqa yöntəmdən də izahlamaq və açıqlamaq olar.

"b"-"m"-"n" səslərinin bir-birilə əvəzlənməsi qanununu qədim türk və protürk dillərində səciyyəvi hal və qayda olaraq nəzərə alsaq, "naq"/"nağ"ın digər variyantlarından biri "baq" ya "bağ"dır. Buradan belə məlum olunur ki "naq" ya "nağ"ın digər bir məna çalarlarından birisi də "ağaşlıq", "ağaşlı yer" və "cəngəl" ya "cəngəllik" deməkdir. deməli "naq"//"naqa"//"naga"nın digər bir məna çalarlarından birisi də "cəngəl","cəngəllik", "ağaşlıq" ,"meşə" və "meşəlik" ola bilər. Biz bu məlumatdan belə bir nəticəyə də çatırıq ki çox güclü bir ehtimala görə Nəqədeh//Naqadeh şəhəri və bölgəsi, ilk öncə (ən azı eradan əvvəl 3-cü

minillikdə), Finiki // Finiqi (Fin-uyğur) türklərinin yurdu və məskəni olmuş olsun və sonralar bu bölgədən indiki Fəlistin və Livan(=Lobnan) ərazisinə köçəndən sonra,həmin tanrılarının adını Livanın(Lobnanın) şimalındakı əraziyə ,təbii və coğrafi şəraitinə uyğun görərək, qoymuş olsunlar, yə`ni "Naqatey" /"Negatey" (= Nəqəde ya Negade) adının tərkibində olan "Nega" tanrısının adını qoymuş olsunlar. Yeri gəlmişkən lazim görünür qeyd edək ki İranın şimalında,Xəzərin cənub sahilində Mazəndaran vilayətinin şərqində yerləşən "Neka" adlı şəhərin adı da,həmən bu əski türk mifi "Naqa"//"Naga" ya "Nega" tanrısının adı ilə bağlı və ilgilidir və bu şəhərin adı da əslində, "Naqa"/"Nega" olubdur və anlamı "Orman tanrısı" ,"ağac tanrısı" deməkdir. Bizə görə Urmiya gölünün günbatan sahilində "Sulduz" mahalında yerləşmiş Azərbaycan şəhəri "Nəqəde" //"Naqade"nin adı da,"Naq"/"Naqa" ilə ilgilidir və Azərbaycanın bu şəhərinin adı,əski türk mifologiyası ilə bağlı bir addır. Biz bu adın kökünü və mənşəyini əski türklərin "Finiki" (Fin-uyqur) dal və şaxəsində bulmaq olar. Biz bu şəhərin

adı və onun etimologiyasının (mənasının) açıklaması haqqında iki güclü versiyanı da önə sürə bilərik. Birinci versiya və ehtimal bu ola bilər ki bu ad, Ak dənizin şərq sahilində,dəniz ilə "Livan"ın (Lobnan) şimalı arasında yerləşmiş,"Nega" adlı cəngəllik bölgənin adı ilə ilgili olmalıdır. "F.Jirand" **15** (F.Guirand) məşhur Fransalı mifoloq " The Myths of Assyria and Babylonia " adlı əsərində "Nega" adlı bölgənin tanıtmasında belə yazır : "Misir əl-yazılarının bir neçə yerində Nega`dan ad aparılıb. Livanın(Lobnanın) şimalında yerləşmiş bu bölgə, sonralar da "Cəbil" məntəqəsini təşkil edir ."Nega" cəngəllik və meşəlik məntəqəsində,müxtəlif növlərdə şam ağacı,dağ sərvi və "mer" ağacları yetişilirdi. Nega`nın tanrısı "Hi- tav" adlanırdı. "Hi-tav" , cəngəlin bitgisəl ruhu sanılırdı. Bir zamanlar elə sanılırdı ki o tənasux tapıb ağaca dönübdur. Bu istinad, bizim Naq// Naqa`nın ağac,cəngəl və ağaçlıq məna çalarına malik olduğu iddiyamıza bir sənəd və faktdır. Bu ehtimal və versiyanın əsasında belə çıxır ki Azərbaycanın "Nəqəde" ya "Naqade" adlı şəhər və ya qəsəbəsi,vaxtilə böyük cəngəllik və ormanlıqla

örtülü bir yer imiş və çox ehtimal ki müxtəlif şam ağaçları,dağ sərvilərlə örtülü bölgə olmuşdü. Deməli Naqa//Naga//Nega tanrısı, əslində əski türk mifləri covqasının tanrılarından birisidir ki Finiki türkləri vasitəsilə Ak dəniz sahillərinə və Afrikaya və Misirə də aparılıb və Misir mifləri və tanrılarının covqasında,özünə özəl yer tutmuşdur.Misir hiroglif (piktogram) mətnlərində qeyd olunub ki "Naqa"// "Nega"nın tanrısı ,buğa ilə ilgili olubdur. Rəs`əlşemra`da tapılan yazılara əsasən ,Finiqi türklərinin miflər panteonunda, tanrılar hər zaman bir buğa ilə ilgili olublar."Nəqəde" adı haqqında digər bir versiya və ehtimal bu ola bilər ki, bu adı əski türk mifologiyası əsasında açıklayaq .Bizə görə yuxarıdakı məlumatın əsasında, Azərbaycanın bu şəhərinin adı,cəngəl və ormanlıq tanrısı və yaxud ağac tanrısı sayılan "Naqa" ya "Nega" ilə ilgili yaranıbdır. Biz apardığımız araşdırmaların əsasında belə bir qənatə gəldik ki bu şəhərin adı,əslində "Naq.atey"/ "Naqa.atey" olubdur və zamanla fonetikasında dəyişilik üz verib və indiki "Naqade" və ya "Nəqəde" formantını əldə edibdir. Bu

toponimin adı əski türk mifi "Naqa" ya "Nega"(=urman,cəngəl, meşə,ağaçlıq və ağac) və "ata"/"atay" (=dədə,tanrı) sözlərinin tərkibindən yaranmış və bütövlükdə bu adın anlamı "orman tanrısı","meşə tanrısı" , "cəngəl tanrısı" və "ağac tanrısı" deməkdir. Deməli Nəqəde və yaxud Naqade şəhərinin adı,"Nega"/"Naga"/ "Naqa" tanrısının adı şərəfinə qoyulubdur.

Məqalənin sonunda qeyd etməliyik ki ümumiyətlə türk ərazilərində,özəlliklə də qədim türk və pro-türklərin yurdu-məskəni sayılan həqiqi Azərbaycan ərazilərində (güneyli- qüzeyli, Gürcüstan,indiki Ermənistan və şərqi Anadolu, Suriyanın və İrakın şimalı və Qafqazı özündə ehtiva edərək),toponimlər (yeradları) öz kök və mənşəyini ilk olaraq,qədim türk mifologiyasından alıb və zaman sürəsində müxtəlif gəlişmələr,tarixi hadisələr və olaylar əsərində, ikinci,üçüncü, dördüncü və "n" dərcəli müxtəlif anlamları da əldə edib və çox vaxtlar görünür ki sonrakı əldə edilmiş anlamlar,əsl və ilkin anlamı öz kölgəsi altına alıb və ilkin əsil anlamı unutdurub və öz həqiqi etimologiya məcrasından

çıxardıb və uzaqlaşdırıb və ona başqa etimolji yönlər və səmtlər veribdir. Bu sadalanan sözlər yə`ni "Naqade"/"Nəqəde" adlarının eranın ilkin çağlarında və eradan çox qabaqlar, türk dilində işəlnməsi ,onu göstərir ki bizim bu ərazilərdə, türk dilli Azərbaycanlılar,eradan çox qabaq minilliklərdə isə,Qafqaz və zaqafqaziya regionunda yə`ni indiki Ermənistan,Gürcüstan,Dağıstan,Xəzərin şimal sahilləri ərazisi və hətda Ukrayna,indiki Azərbaycan (qüzeyli-güneyli),şərqi Anadolu , İrak və Suriya şimalında yaşamışlar və öz yaşadıqları əraziyə , tayfalarına,dağlarına,çaylarına öz dillərində,öz mifik təfəkkürləri ,inamları və görüşləri ilə bağlı, ad qoymuşlar.Bizə görə "Nəqəde" adının yaranması və təşəkkülü ,qədim Azərbaycan türk soylu və türkdilli xalqının ilkin ibtidai təfəkkürü,dünya görüşü və mifologiyası ilə bağlı bir mifik addır. Yeri gəlmişkən xatırlatmalyıq ki Nəqəde – Sulduz mahalında yerləşmiş kəndlərin adlarına baxarkən , onların bə`zilərinin adlarının türk mifik adları ilə ilgili olduğunu və onlardan yaranmasını görmək olar. Misal üçün ilk baxışda Çiyanə , Qarna, Dəlmə

,Oxsar, Məmiyənd, Əl məlik, Alagöz, Bəyim qala , Vəznə , Yunusli , və sayirəni ad aparmaq olar. Bizim bundan sonra da, bir sıra Sulduz- Nəqəde kənd adlarının etimologiyası və mənasının açıklamasında çalışmamız olacaq və onların türk Azərbaycan mifolojisi ilə nə qədər ilgili olduğunu göstərib şahid olacayıq . SON

Yazar : Fərhad Cavadi Yekan Sədi (Abdulla oğlu) / Urmiya / 15 iyun 2018

Qaynaqça

1- İsfəndyar Hacilu , tarix vilayət Sulduz / 4 cilddə / birinci cild: Sulduz və Qərapapaq /ikinci cild: tarixi sənədlər/ üçüncü cild: Pəhləvi dövrü / dördüncü cild:İslam inqilabı dövrü

2- Mehdi Rəzəvi , il Qarapapaq – tarix,adab,rsüm,folklor və monografiya , çap ili , zemistan 1370

3- Frud Xosrəvi Çiyanə,tarix il Qərapapaq (Bozçəluye pişin) ,Ədiban nəşriyyatı, Urmiə , 1389,

4- İsa Yeganə , negahi be tarix və fərhəng il qarapapax ,1-ci çap

5- Yusif Qəhrəmanpur, fərhəng amə il Qarapapaq – yaz nəşriyyatı, 1-ci çap , 1385,Urmiə

6- Hac İsmail Nəbiyar , Azərbaycan və Sulduz , 1-ci çap , 1381

7- V.V.Radlov , türk ləhcələrinin lüğət tərcüməsi , spb ,1893 ,s1476

8- Mirəli Seyyidov , Azərbaycan xalqının soy kökünü düşünərkən , köçürən:Rəhim Şavanlı , 1-ci çap , nəşər əxətər, Təbriz 1384

9- William G. Doty , əsatir cəhan , tərcümə :Əbulqasım İsmail pur, nəşr qods , təhran 1392

10- j. Vieux , əsatir Misr, tərcümə : Əbulqasım İsmail pur,nəşr qətrə ,5-ci çap, 1389

11- RİÇard kavındiş , osturə şünasi – əsatir və ədyan məşhur cəhan , tərcümə : rüqəyyə Bəhzadi , nəşr elm , təhran 1387 / 2-ci çap 1390

12- N.M.Xudiyev – Ə.A.Quliyev , qədim türk abidə

lərinin sözlüyü, Nəsirəddin Tusi adına Azərbaycan dölət pedaguji universitəti , Bakı 1992

13- V.F.Purşanski , Yaqutlarda qara inamın aşınması, 1902

14- Wilyam Piroyan – seyr təhəvvül əndişe siyasi dər şərq bastan – sazman mütaleə və tədvin kotob elum ensani danşgaha (səmt) - tehran 93

15- F.Jiran, G.Lakue, L.Delaport- fərhəng əsatir Aşur və Babil –tərcümə əbulqasım ismailpur – entşarat fəkər ruz – təhran 1375